# UĞURSUZ PLAN

**ÜÇÜNCÜ CİLD**

**İslam İnqilabının Böyük Rəhbəri Həzrət Ayətullah Seyid Əli Xameneinin 2009-cu il fitnəsi haqda çıxışlarından seçmələr**

**Tərcümə edən:
Məhəmmədhüseyn Hərəndli**

# Dördüncü fəsil

## Agahlıq əldə etmək

### Agahlığın məna və cəhətləri

Gənclər fikirləşməli, düşünməli və öz agahlıqlarını artırmalıdırlar. Bizim cəmiyyətimizdə mövcud olan öhdəçi adamlar və ruhani müəllimlər, elm və savad adamları, universitet və hövzə mənsubları agahlıq məsələsinə əhəmiyyətli yanaşsınlar; məqsəddə agahlıq, vasitədə agahlıq, düşməni tanımaqda agahlıq, yolun maneələrini tanımaqda agahlıq, bu maneələrin qarşısını almaq və onları ortadan götürmək yollarını tanımaqda agahlıq. Bu agahlıqlar lazımdır. Agahlıq olduqda siz kiminlə tərəf-müqabil olduğunuzu bilir və lazımi hazırlıqları görürsünüz. Siz küçədə yol yerimək istəsəniz, bunu adi paltar və başmaqla da etmək olar. Amma Dəmavənd dağının zirvəsinə çıxmaq istəsəniz, bunun öz imkanları lazımdır. Agahlıq odur ki, nə istədiyinizi və özünüzlə nəyi götürməli olduğunuzu biləsiniz.

# Agahlığın səviyyələri

Agahlığı iki səviyyədə tərif edə bilərik. Bir səviyyə təməl səviyyə və agahlığın dərin qatıdır. İnsan dünyagörüşü seçimində və tövhid məfhumlarının əsaslı dərkində təbiət aləminə qarşı tövhid baxışı ilə bir agahlıq əldə edir. Tövhid baxışı ilə maddi baxış arasında fərq bundadır: Tövhid baxışına görə bu dünya nizam-intizamlı bir məcmudur, təbiət məqsədlidir. Bu təbiətin bir hissəsi olan vücudumuz və həyatımız da məqsədlidir; məqsədsiz dünyaya gəlməmişik. Bu, tövhid baxışının nəticəsidir. Elmli və qüdrətli Allahın varlığına etiqadın mənası budur. Məqsədli olduğumuzu anladıqda o məqsədi axtarmağa başlayırıq. Bu axtarışın özü ümidverici bir səydir. Biz o məqsədi tapmağa çalışırıq. Məqsədi tapdıqda, onun nə olduğunu anladıqda ona çatmaq üçün fəaliyyət başlayır. Bu zaman bütün həyat fəaliyyətdən ibarət olur; özü də məqsədli və hədəfli fəaliyyətdən. Digər tərəfdən, bunu da bilirik ki, tövhid baxışına görə, məqsəd yolunda hər bir fəaliyyət və zəhmət insanı mütləq nəticəyə çatdırır. Bu nəticələrin dərəcələri var və şübhəsiz ki, gözəl bir nəticəyə çatdırır. Bu baxışla

insanın həyatında daha məyusluq, ümidsizlik, çaşqınlıq və qüssə olmur. Siz vücudunuzun, yaranmanızın, həyatınızın və tənəffüsünüzün bir məqsədlə həyata keçdiyini bildikdə o məqsədi axtarırsınız, ona çatmaq üçün hərəkət edir və fəaliyyət göstərirsiniz. Varlığın Yaradanı olan Allah-Taalaya görə bu hərəkətin özünün də mükafatı və savabı var. Hansı nöqtəyə çatsanız, əslində məqsədə çatmısınız. Odur ki, tövhiddə mömin üçün ziyan və zərər ümumiyyətlə təsəvvür olunmur. Buyurub ki, iki ən yaxşı haldan biri bizi gözləyir: ya bu yolda öldürüləcəyik - bu ən yaxşıdır; ya da düşməni ortadan götürüb məqsədə çatacağıq - bu da ən yaxşıdır. Deməli, burada zərər yoxdur.

Bunun tam qarşı tərəfi maddi baxışdır. Maddi baxış əvvəla insanın yaranışını, dünyadakı varlığını məqsədsiz bilir. Ümumiyyətlə nə üçün dünyaya gəldiyini bilmir. Düzdür, dünyada özü üçün məqsədlər tərif edir: pul qazansın, eşqinə qovuşsun, vəzifəsi yüksəlsin, fiziki ləzzətlərə nail olsun, elmi ləzzətlərə nail olsun. Özü üçün belə məqsədlər tərif edə bilər, amma bunların heç biri təbii məqsəd deyil, zəruri olaraq onun vücudu ilə yanaşı deyil. Allaha etiqad

olmadıqda əxlaq da mənasız olur, ədalət də; şəxsi ləzzət və maraqdan başqa heç bir şeyin mənası olmur. Əgər şəxsi mənafe yolunda insanın ayağı daşa dəyib əzilsə, zərər çəkmiş və xəsarət görmüşdür. Əgər mənafeyini təmin edə bilməsə, əgər çalışa bilməsə, növbə ümidsizliyə, məyusluğa, intihara və digər məntiqsiz işlərə çatır. Deməli, tövhid baxışı ilə maddi baxış arasındakı, ilahi inamla maddi inam arasındakı fərq budur. Bu, agahlığın ən əsas təməlidir.

Bu baxışla insan mübarizə apardıqda bu mübarizə müqəddəs bir iş olur. Əgər silahlı müharibə də olsa, belədir. Mübarizə ümumiyyətlə bədbinlik və bədxahlıq əsasında baş vermir. Mübarizə yalnız insanın özünün yox, bütün insaniyyətin xeyrə, kamiliyyə, rifaha və uca məqamlara nail olması üçündür. Bu baxışla həyat gözəl və bu geniş meydanda hərəkət etmək ürəkaçan olur. İnsanın yorğunluğu Allah-Taalanı yad etməklə və məqsədi yada salmaqla aradan qalxır. Bu, etiqadın əsas təməlidir; agahlığın əsas təməlidir. Bu agahlıq çox lazımdır. Biz buna malik olmalıyıq. Agahlıq əslində cəmiyyətdə bütün insani səy və

mübarizələrin şərtidir. Bu, agahlığın bir səviyyəsidir.

Agahlığın bu geniş səviyyəsindən və dərin qatından əlavə müxtəlif hadisələrdə insan üçün agahlığın və avamlığın yaranması mümkündür. İnsan agahlıq əldə etməlidir. Bu agahlığın mənası nədir? Agahlıq əldə etmək nə deməkdir? İnsan bu agahlığı necə əldə edə bilər? Müxtəlif hadisələrdə lazım olan, Əmirəl-mömininin (ə) hədis və kəlamlarında təkid göstərilən bu agahlığın mənası odur ki, insan ətrafında baş verən, qarşısına çıxan və onunla əlaqədar olan hadisələrdə fikirləşsin, onların yanından avam və bəsit şəkildə keçməməyə çalışsın, Əmirəl-mömininin (ə) sözü ilə desək, nəticə çıxarsın: "Allah təfəkkür edib nəticə çıxaran insana rəhm eləsin!" Fikirləşsin və bu fikir əsasında nəticə çıxarsın, məsələləri müqayisə etsin və bu nəticə ilə agahlığa nail olsun. Hadisələrə düzgün baxmaq, düzgün nəticə çıxarmaq, onlar barədə fikirləşmək insanda agahlıq, yəni gözüaçıqlıq yaradır və insanın həqiqətə gözü açılır.

Əmirəl-möminin (ə) başqa bir yerdə buyurur: "Agah insan eşidən, fikirləşən və görən insandır". Agah insan eşidən, qulağını

bağlamayan, eşitdikdə düşünən və hər hansı bir şeyi eşidən kimi rədd, yaxud qəbul etməyən şəxsdir. Düşünmək, baxmaq və gözü açmaq lazımdır. Avamlıq uçurumlarından sürüşüb yıxılan bir çox insanların iradı budur ki, baxmadılar, gözlərini aydın həqiqətlərə yumdular. İnsan baxmalıdır; baxsa, görəcək. Biz çox zaman bəzi şeylərə ümumiyyətlə baxmaq istəmirik; ümumiyyətlə baxmaq istəməyən bəzi sapqın adamlar var. İnadkar düşmənlə işimiz yoxdur; bu barədə sonra danışacağıq: "Həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər". Bəzi adamlar məsələyə qərəzli şəkildə və inadla yanaşırlar. Düşmən düşməndir, söhbət ondan getmir; söhbət meydanda olan məndən və sizdən gedir. Əgər biz agah olmaq istəyiriksə, gözümüzü açmalı və görməliyik; görüləsi şeylər çoxdur. Əgər biz onların yanından ötəri keçsək, onları görməsək, təbii ki, səhv edəcəyik.

Mən tarixdən bir misal vurum. Siffeyn döyüşündə Müaviyənin ordusunun məğlub olmasına az qalırdı; tamamilə məhv edilməsinə bir şey qalmırdı. Canlarını xilas etmək üçün

düşündülər ki, Quranları nizələrə taxıb meydana gətirsinlər. Quran vərəqlərini nizələrə taxıb dedilər ki, Quran bizimlə sizin aranızda hakim olsun; Quran nə desə, onu edək. Bəli, avamların xoşuna gələn qəşəng bir iş idi. Qoşunun içindən sonralar Xəvaricdən (separatçılardan) olub Əmirəl-mömininə (ə) qarşı xəncər çəkən bir qrup dedi ki, yaxşı sözdür, bunlar pis söz demirlər, Quranı hakim etmək istəyirlər. Baxın, bura sürüşkən yerdir. Burada insan ayağının altına baxmayanda sürüşür. Əgər sürüşsə, heç kəs onu bağışlamaz, çünki ayağının altına baxmayıb, ayağının altındakı yemiş qabığını görməyib. Onlar baxmadılar. Əgər həqiqəti anlamaq istəsəydilər, anlayardılar, çünki gözlərinin önündə idi. Quranın hakim edilməsinə və hökmünə tabe olmağa dəvət edən şəxs seçilmiş və itaəti vacib olan imamla vuruşur. O, Qurana necə inana bilər?! Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) bizim nəzərimizcə Peyğəmbər (s) tərəfindən təyin edilmiş xəlifədir. Amma bunu qəbul etməyən şəxslər də o zaman üçüncü xəlifədən sonra hamının onunla beyət və xilafətini qəbul etdiyini bilirdilər. O bu yolla imam və İslam cəmiyyətinin itaəti vacib olan

hakimi olmuşdu. Onunla vuruşan, onun əleyhinə xəncər çəkən şəxslə vuruşmaq bütün müsəlmanların vəzifəsi idi. Əgər Quranı nizəyə taxan bu şəxs Qurana etiqadlıdırsa, Quran deyir ki, nə üçün Əli (ə) ilə vuruşursan? Əgər həqiqətən Qurana etiqadlıdırsa, əllərini qaldırıb "mən vuruşmuram" deməli və xəncərini yerə atmalıdır. Bunu görməli və anlamalı idilər. Bu, çətin məsələ idi?! Bu, dərki mümkün olmayan bir problem idi?! Səhlənkarlıq etdilər. Bu avamlıqdır. Əgər azca düşünüb fikirləşsəydilər, həqiqəti anlayardılar. Çünki bunların özləri Mədinədə Əmirəl-mömininin (ə) səhabələri olmuşdular; Osmanın öldürülməsində Müaviyənin adamlarının və köməkçilərinin əlinin olduğunu görmüşdülər. Osmanın öldürülməsinə onlar şərait yaratdılar və sonra qisas məqsədilə köynəyini bayraq etdilər. Onların özləri bu işi gördülər, günahkar özləri idilər, amma günahkar axtarırdılar. Baxın, bu avamlıq diqqətsizlikdən irəli gəlir, baxmamaqdan irəli gəlir, aydın bir həqiqətə göz yummaqdan irəli gəlir.

Sonuncu iğtişaşlarda bəziləri səhv etdilər. Bu, avamlığa görə idi. Böyük və əzəmətli bir

seçkilərdə saxtakarlıq iddiası etməyin yolu bəllidir. Saxtakarlığın baş verdiyini düşünən şəxs əvvəla buna dəlil göstərməlidir. Bundan əlavə, dəlil göstərsə də, göstərməsə də, qanun yolu müəyyən etmişdir; şikayət edə bilər. Gərək yoxlanıb araşdırılsın, bitərəf şəxslər gəlib baxsınlar və saxtakarlığın edilib-edilmədiyi bəlli olsun. Yolu budur. Biz də buna çox kömək etdik. Mən qanuni müddəti uzatdım; hətta dedik ki, insanlar özləri kamera önünə gəlib saysınlar. Əgər kimsə bu yolu qəbul etmirsə, deməli, inadkarlıq edir... Burada məqsəd ötən hadisələr haqda fikir bildirmək deyil, misal vurmaq istəyirik. Deməli, agahlığa nail olmaq çətin iş deyil. Əgər siz baxıb məntiqli və qanuni bir yolun olduğunu görürsünüzsə və kimsə o məntiqli və qanuni yoldan imtina edib ölkə üçün zərərli olan, xalqın maraqlarına zərbə vuran bir iş görürsə, ədalətli, normal və tərəfsiz baxışla onun haqsız olduğu bəllidir. Bu aydın bir məsələdir, aydın bir mühakimədir. Buna görə görürsünüz ki, xalqın agah olmasını istəmək çətin və mümkünsüz bir işi istəmək deyil. Agahlığa nail olmaq çox çətin iş deyil. Agahlıq əldə etmək bu qədər lazımdır ki, insan müxtəlif

tələlərə - dostluqların, düşmənliklərin, nəfsin istəklərinin və müxtəlif tələsik mühakimələrin tələsinə düşməsin. İnsan bu qədər baxıb fikirləşsə, həqiqəti görə bilər. Agahlıq bu fikirləşməkdən, bu baxmaqdan ibarətdir, artıq gözlənti deyil. Beləliklə anlamaq olar ki, agahlığa nail olmaq hamının işidir; hamı agah ola bilər. Əlbəttə, bəzi adamlar inadkarlıq və bədxahlıq üzündən deyil, diqqətsizilik üzündən avamlıq edirlər. İnsan öz canını çox istəsə də, bəzən maşın sürərkən bir an diqqətinin yayınması, yuxulaması və qəzaya düşməsi mümkündür. Bu sahədə baş verən yayınmaları günah saymaq olmaz, amma əgər davamlı olsa, avamlıqdır və məqbul deyil.

## Agahlığın əhəmiyyəti

Agahlıq işıq saçan projektor, qibləni və qütbü göstərən kompasdır. İnsan bir səhrada kompassız hərəkət etsə, təsadüfən məqsədə çatmaq ehtimalı azdır. Daha güclü ehtimal budur ki, yolu azıb çoxlu problem və çətinliklərə düşsün. Xüsusən qarşıda düşmən olduqda adama mütləq kompas lazımdır. Əgər kompas olmasa, siz yaraqsız vəziyyətdə düşmən

mühasirəsinə düşərsiniz və daha əlinizdən bir şey gəlməz. Deməli, agahlıq kompas və projektordur. Agahlıq zülmətləri aydınlaşdırır və bizə yol göstərir.

Biz harada düzgün anlayıb yolu təyin edə bildiksə, yəni agahlığımız oldusa və onun ardınca öhdəlik və məsuliyyət hiss edib meydana atıldıqsa, qələbə bizimlə oldu: "Əgər daxil olsanız, onlara mütləq qələbə çalarsanız". Mübarizə meydanına iman və agahlıqla daxil olduğunuzda qələbə sizinlədir, siz qalibsiniz. Nə üçün? Çünki sizin qarşı tərəfinizin imanı yoxdur, dini yoxdur, güclü mənəviyyatı yoxdur. Onun adamları muzdurlar və aldanmışlar, plan hazırlayanların və idarə edənlərin özləri də imansız insanlardır. Siz imanla meydana daxil olduqda qələbə çalarsanız. Bu, İran xalqının təcrübəsidir.

Əmirəl-mömininin (ə) həyatı başdan-ayağa dərsdir. Əmirəl-mömininin (ə) bir insanın və bir rəhbərin bütün yaxşı xislətlərinə şamil olan rəftarları arasında müşahidə olunan və bizim bu günümüz üçün bu xüsusiyyətlərin ən üstünü olan məsələ agahlığa ehtiyacı olan şəxsləri agah etmək və vəziyyəti aydınlatmaq məsələsidir.

Bütün dövrlərdə bu sonsuz şücaət, bu əzəmətli fədakarlıq xalqı agah etməyə, xalqın düşüncələrini və imanını dərinləşdirməyə işlədilmişdir. Siffeyn döyüşündə məğlub olduğunu hiss edən qarşı tərəf müharibəni saxlamaq üçün Quranları nizəyə taxdı, bir qrup adam Əmirəl-mömininin (ə) ətrafını sarıb dedilər ki, gərək təslim olub müharibəni bitirəsən, bunlar Quranı ortaya gətirmişlər. Hiyləgər və qəribə bir iş idi. Həzrət buyurdu ki, siz səhv edirsiniz, bunları tanımırsınız, bu gün Quranı hakimlik üçün gətirən bu şəxslərin Qurana etiqadı yoxdur. Mən bunları tanıyıram. Mən bunların uşaqlığını da görmüşəm, böyüklüyünü də. Onlar həm uşaqlıq zamanı, həm də böyüyəndən sonra ən pislər olmuşlar. Bunlar Qurana inanmırlar, sıxıntıda qaldıqları üçün Qurandan yapışmışlar. Təbii ki, onlar qulaq asmadılar, israr etdilər və İslam dünyası bunun ziyanını gördü. Əmirəl-möminin (ə) agahlıq bəxş edən bir insan idi.

İslam bizə deyir ki, müsəlman cəmiyyəti İslamın əmri ilə idarə olunmalı, hidayət edilməli və yaşamalıdır. İslam deyir ki, düşmənlər qarşısında qudrətlə dayanmaq lazımdır, onlarla

aydın və şəffaf sərhəd yaranmalıdır. İslam deyir ki, düşmənlərə aldanmaq olmaz. Bu, Əmirəlmömininin (ə) aydın xəttidir. Bu gün bizim də bu aydın xəttə ehtiyacımız var.

Əlbəttə, inqilabın sayəsində İran xalqı sayıq xalqdır. Bu ölkənin çoxlu problemləri xalqın agahlığı ilə həll olunmuşdur. Adi camaat çox zaman həqiqətləri bəzi görkəmli və aparıcı şəxslərdən də yaxşı görür və anlayırlar; çünki bağlantıları azdır. Bu, böyük nemətlərdəndir. Mənim əziz qardaş və bacılarım! Siz bilin və bütün İran xalqı bilsin: İran xalqı uca İslam amallarına sarı hərəkət yolunda öz möhkəmliyini göstərmişdir və Allahın yardımı ilə onu qoruyacaqdır.

# Agahlığın zəruriliyi

## Düşmən hiylələri qarşısında sayıqlıq

Bu gün bizim bu agahlığa ehtiyacımız var. Bu gün İslam dünyasının və İslam birliyinin düşmənləri din və əxlaq vasitəsi ilə təxribatlar aparırlar; sayıq olmaq lazımdır. Onlar qeyri-müsəlmanların ictimai rəyini aldatmaq istəyəndə insan hüquqlarından, demokratiyadan

danışırlar, İslam dünyasının ictimai rəyini aldatmaq istəyəndə də Quranın və İslamın adını çəkirlər. Halbuki nə İslama və Qurana etiqadları var, nə də insan haqlarına. İslam ümməti bunu bilməlidir. İran xalqı bu otuz bir il ərzində bunları sınamışdır. Bu gün də hamımız bunu bilməliyik. Əmirəl-möminin (ə) hiylə və fitnə anında öz dostlarına fəryad edir ki, öndə tutduğunuz bu haqq yolu və doğruçu hərəkəti əldən verməyin, buraxmayın, fitnəkarların və fitnə yaradanların sözləri ilə qəlbinizdə şübhə yaranmasın. Yolunuz düz yoldur. Dəfələrlə dediyimiz kimi, fitnə dövrünün xüsusiyyəti dumanlılıqdır, qarışıqlıqdır. Aparıcı şəxslər bəzən səhvlər edirlər. Burada meyar lazımdır. Meyar haqq, sədaqət və xalqın önündə olan dəlil-sübutlardır. Əmirəl-möminin (ə) xalqı ona yönəldirdi. Bu gün də bizim ona ehtiyacımız var.

## Hər bir ümumi hərəkətin ümumi agahlığa ehtiyacı

Düzgün, məntiqli, ağıllı və eyni zamanda qətiyyətli bir mübarizənin bir neçə amilə ehtiyacı var:

Biri imandan irəli gələn maraqdır. Bir xalqı və gəncləri əmrlə çətin bir meydanda duruş gətirməyə vadar etmək olmaz. Ürəkdən maraq oyanmalıdır; özü də imandan irəli gələn maraq. Bu gün bizim gənclərimizdə bu kifayət qədərdir. Mən xəbərdar olub deyirəm; gənc nəslimizlə və gənc təbəqəmizlə tanışlığa görə deyirəm. Bu gün bizim gənclərimizin maraqları 1978-ci ildə Amerikanın muzduru olan Pəhləvi rejiminin bu küçələrdə hücum etdiyi və qanını tökdüyü gənclərdən az deyil, çoxdur.

Bu gün bizim gənclərimizin maraqları bir qrup gəncin inqilab əleyhinə təxribatların mərkəzi olan Amerika səfirliyini tutduğu zamandan çox olmasa da, az deyil. Səbəb də aydındır. Çünki bu xalqın tarixində otuzillik təcrübə qeyd olunmuşdur. Gəncin ayıq zehni və açıq gözü o günləri görməsə də, bu təcrübələri götürür. Bir xalqın təcrübələri nəsil-nəsil zənginləşir, dərinləşir və daha səmərəli olur. Deməli, maraq baxımından bizim bugünkü gənclərimizin çatışmazlığı yoxdur. Müxtəlif dəlillərə görə rahat həyatı və sülhü tərcih edən, yaxud düşmənin sazı ilə rəqs etməyi eyib bilməyən bir qrup yorğun və peşman

inqilabçıdan başqa ölkə gəncliyində və əksəriyyətini gənclərin təşkil etdiyi xalqda bu dərin maraq var. Əgər bu gün bizim ölkəmizdə səksəninci ildə baş verən məcburi müharibə kimi bir hadisə baş versə, gənclərin cəbhəyə getməsi, onların aşkar və üzbəüz düşmənlə qarşılaşmaq üçün könüllülüyü 80 və 81-ci ildən dəfələrlə çox olacaq.

Başqa bir lazımlı faktor agahlıqdır. Görürsünüz ki, mən müntəzəm olaraq gənclərlə, tələbələrlə və xalqın müxtəlif təbəqələri ilə görüşdə agahlıq üzərində təkid göstərirəm. Bu ona görədir ki, dünyanın bugünkü çox mühüm vəziyyətində və bizim əziz ölkəmizin dünyadakı üstün və müstəsna mövqeyində hər bir ümumi hərəkətin ümumi bir agahlığa ehtiyacı var. Əlbəttə, mən bunu da sizə deyim: bu gün bizim gənclərimizin agahlığı da inqilabın əvvəlində və inqilab ərəfəsindəki gənclərdən şübhəsiz, artıqdır. Siz bu gün çox şey bilirsiniz. Bu gün çox şey sizin üçün aydın məsələlərdəndir, lakin o zamanlar onları gənclərə izah etməli və danışmalı idik. Bu gün bizim gənclərimiz bunları bilirlər, agahlıq səviyyəsi yüksəkdir. Eyni zamanda mən agahlıq üzərində təkid edirəm.

## Bugünkü mürəkkəb ictimai həyat

Allah-Taala çətin Məkkə dövründə Peyğəmbərinə (s) buyurur ki, mən agahlıqla hökm edirəm: "(Ey Rəsulum!) De: "Bu mənim (dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) agahlıqla (insanları) Allaha çağırırıq". Peyğəmbərin (s) özü də agah şəkildə hərəkət edir, onun düşüncəsinin tərəfdarları da. Bu, Məkkə dövrünə aiddir. O zaman hələ hökumət yox idi, cəmiyyət yox idi, çətin idarəetmə yox idi, lakin agahlıq lazım idi. Mədinə dövründə isə daha çox lazımdır. Mənim son bir neçə ildə həmişə agahlıq üzərində təkid göstərməyimin səbəbi budur ki, bir xalq, bir ölkənin gəncləri agah olduqda, agah şəkildə hərəkət edib addım atdıqda onların qarşısında düşmənin bütün silahları zəifləyir. Agahlıq budur. Agahlıq olduqda fitnə dumanları onları azdırıb səhvə sala bilmir. Əgər agahlıq olmasa, insanın niyyəti yaxşı olsa da, bəzən pis yola qədəm qoyar. Siz döyüşdə yolu tanımasanız, xəritəni bilməsəniz, əlinizdə kompas olmasa, bir də görərsiniz ki, düşmənin mühasirəsinə düşmüsünüz, yolu səhv salmısınız, düşmən sizi

əhatəyə almışdır. Bu kompas sözügedən agahlıqdır. Bugünkü mürəkkəb ictimai həyatda agahlıq olmadan hərəkət etmək olmaz.

## Dostu düşməndən ayırmaq

Əgər sizə bir tövsiyə etmək istəsəm, o tövsiyə agahlığınızı artırmaq barədə olar. Xalqların başına gələn bəlalar çox zaman agahlığın olmamasından irəli gəlir. Görürsünüz ki, öz cəmiyyətimizdə də bəzi adi insanlar və daha çox aparıcı şəxslər səhvlər edirlər. Aparıcı şəxslərin daha az səhv etməsi gözlənilir, lakin səhvləri say baxımından olmasa da, nəticə etibarilə adi camaatın səhvlərindən çoxdur. Bu, agahlığın olmamasına görədir.

Öz agahlığınızı artırın, yüksəldin. Mən Əmirəl-möminінin (ə) zənnimcə Siffeyn döyüşündə buyurduğu bu sözünü dəfələrlə demişəm: "Bu bayraq yalnız agah və dözümlü insanlar tərəfindən götürülər". Bilirsiniz ki, Əmirəl-mömininin (ə) işi bəzi cəhətlərinə görə Peyğəmbərin (s) işindən çətin idi. Çünki Peyğəmbərin (s) dövründə düşmən də bəlli idi, dost da. Əmirəl-mömininin (ə) bayrağı altında olanların dost və ya düşmən olması isə o qədər

də aydın deyildi; düşmən də dostun dediyi sözləri deyirdi. Cəməl, Siffeyn və Nəhrəvan döyüşlərində Əmirəl-mömininin (ə) düşərgəsində qılınan camaat namazından qarşı tərəfdəki düşərgədə də qılırdılar.

Əgər siz olsanız, nə edərsiniz? Sizə deyirlər ki, qarşı tərəf haqsızdır. Siz deyirsiniz ki, belə namaz qılan və ibadət edən tərəf?! Onların bəziləri, məsələn Xəvaricdən olanlar çox ibadət edirdilər. Əmirəl-möminin (ə) gecə qaranlıqda Xəvaricin düşərgəsində gəzərkən birisinin gözəl səslə Quranın bu ayələrini oxuduğunu eşitdi: "Məgər axirətdən qorxan, Rəbbinə ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən (müti bəndə kafirlə birdirmi)?!" Gecənin yarısı çox yanıqlı və təsirli səslə Quran oxuyurdu. Həzrət Əlinin (ə) yanında olan bir nəfər dedi ki, ey Əmirəl-möminin, bu ayəni belə gözəl şəkildə oxuyan bu şəxsin xoş halına! Kaş mən onun bədənində bir tük olub, sayəsində cənnətə gedəydim!

Nəhrəvan döyüşü başlandı. Düşmənlər məğlub edilib oldürüldükdən sonra Əmirəl-möminin (ə) düşmən ölülərinin yanından keçir,

üzü üstə düşmüş bəzi cəsədləri qaldırmağı əmr edir və onlarla danışırdı. Onlar ölmüşdülər, amma öz səhabələrinin eşitməyi üçün belə edirdi. Birini də qaldırmalarını söylədi; qaldırdılar. O gecə imamın yanında olan şəxsə buyurdu ki, bunu tanıyırsanmı? Cavab verdi ki, xeyr. Dedi ki, bu, bədənində bir tük olmanı arzuladığın şəxsdir. O gecə Quranı elə yanıqlı oxuyurdu, amma burada canlı Quranın, yəni Əmirəl-möminin (ə) qarşısında qılınc çəkir; çünki agahlıq yoxdur və vəziyyəti dərk edə bilmir.

Mən bu siyasi səhnələri dəfələrlə döyüş cəbhəsinə bənzətmişəm. Əgər siz hərbi döyüşdə coğrafi koordinatları bilməsəniz, böyük səhvlər baş verə bilər. Məhz buna görə yerləri təyin etməyə gedirlər. Hərbdə mühüm işlərdən biri məlumatdır; dəqiq məlumat. Yəni gedib görsünlər ki, düşmən haradadır, necədir, mövqeyi necədir, törədə biləcəyi təhlükə nədir və ona qarşı nə etməlidirlər. Əgər kimdəsə bu məlumatlar olmasa, ərazini tanımasa, düşməni itirsə, bir də görərsiniz ki, raket və toplarını düşmənlərinin yox, dostlarının olduğu səmtə çevirib atəş açır; çünki bilmir. Siyasi səhnə də

eynilə belədir. Əgər agahlığınız olmasa, dostu və düşməni tanımasanız, bir də görərsiniz ki, sizin təbliğat topunuzun atəşi, sizin söz və əməlləriniz dostlarınızın yerləşdiyi səmtə yönəlmişdir. İnsan düşməni tanımalıdır. Düşməni tanımaqda səhv etməməliyik və bunun üçün agahlıq lazımdır.

## Haqq və batilin qarışması

Öz agahlığınızı bacardığınız qədər artırmağa və dərinləşdirməyə çalışın, düşmənlərin bizim avamlığımızdan istifadə etməsinə imkan verməyin. Düşmən dost kimi, haqq nahaq kimi və nahaq haqq libasında görünür. Əmirəl-möminin (ə) bir xütbədə cəmiyyətin ən mühüm problemlərindən biri kimi bunu qeyd edir. Buyurur ki, əgər haqq aşkar şəkildə xalqın qarşısına çıxsa, heç kim onun əleyhinə danışa bilməz; əgər nahaq da özünü aşkar formada göstərsə, xalq ona sarı getməz. Lakin xalqı azdırmaq istəyənlər nahağı çılpaq şəkildə gətirmirlər, onu haqla qarışdırırlar. O zaman haqq öz tərəfdarlarına da şübhəli görünür. Buna görə agahlıq bizim ilk vəzifəmizdir. Gərək haqq və nahağın səhv salınmasına qoymayaq.

# Nümunələr

## Hegemonluğu tanımaq

Agahlığın birinci işi budur ki, mübarizə aparmağın lazım olduğu bu hegemonluq nədir? Hegemonluq dünyada güc, yaxud güclərdir; onlar özlərinə baxıb pul, silah və təbliğat imkanlarına malik olduqlarını görür və bu səbəbdən digər ölkələrin və xalqların işlərinə amiranə müdaxiləni öz haqları bilirlər. Hegemonluğun mənası budur. İstismarçılıq ruhu inqilabdan öncə bizim ölkəmizdə aydın formada görünürdü. Yəni Amerika hegemoncasına bu böyük ölkəyə, bu zəngin tarixə malik olan bu böyük xalqa pəncə atmışdı, bizim ölkəmizin mühüm və əsaslı işlərinə müdaxilə edirdi. Səbəb də bu idi ki, ölkənin başçıları fəsada uğramışdılar, xalq arasında yerləri yox idi, dayaq axtarır və Amerikaya söykənirdilər. Amerika da heç kəsə havayı bir şey vermir; onları himayə etməyi ölkələrinin işlərinə tam müdaxiləyə qarşılıq etmişdi. Sizin üçün bəlkə də təəccüblü olar, amma bilin ki, Şah Məhəmmədrza bir Baş naziri işdən çıxarıb başqasını təyin etmək üçün Amerikaya gedib iki-üç həftə orada qalmağa və onların razılığını cəlb

etməyə məcbur olurdu. Bizim ölkəmizin vəziyyəti bu həddə çatmışdı. Pəhləvi hökumətinin son illərində bundan da pis olmuşdu; daha Amerikaya getmək lazım olmurdu. Amerika və İngiltərənin səfirləri burada şahın sarayına gedir və ona deyirdilər ki, siz neft işində belə edin, beynəlxalq münasibətlərdə belə edin, xalqla belə rəftar edin, mübarizlərlə belə rəftar edin; əmr edirdilər, şah da qəbul edirdi. Bir məmləkətin başçısı bu qədər zəif, bu qədər zəbun və əcnəbilər qarşısında bu qədər təslimçi olduqda digərlərinin vəziyyəti bəllidir. Bizim ölkəmizin vəziyyəti belə idi. Hegemonluğun mənası budur.

Amerika tam bir hegemondur. Bu yalnız bizim sözümüz deyil, bütün dünyanın və İslam dünyasının sözüdür. Amerikalılar bütün dünyaya qarşı hegemon ruha malikdirlər. İkinci Dünya Müharibəsində Yaponiyanı məğlub etdikdən sonra orada hərbi baza yaratdılar. Amerikalıların Yaponiyadakı bazası hələ də durur. Yaponlar bütün bu elmi inkişaflarla yanaşı hələ Amerikanın bazasını ölkələrindən çıxara bilməyiblər. Orada hərbi bazası var, xalqa zülm edirlər, əziyyət verirlər, qəzetlərə də çıxır,

xəbər agentliklərində də deyirlər; namusa təcavüz və digər işlər görürlər, amma hələ də oradadırlar. Cənubi Koreyada da Amerikanın hərbi bazaları var. İraqda Amerikanın planı budur ki, baza qursun və əlli il, yüz il orada qalsın; Əfqanıstanda da həmçinin. Əfqanıstan elə bir yerdir ki, əgər orada hərbi bazaları olsa, Cənub-Qərbi Asiya ölkələrinə, Rusiyaya, Çinə, Hindistana, Pakistana və İrana nəzarət edə bilərlər. Onlar bütün bu səyləri göstərirlər ki, orada daimi bir baza qurub qalsınlar. Hegemonluğun mənası budur.

İran xalqı Amerikanın muzdur rejimini devirib onu bu ölkədən qovdu. Amerikalılar inqilabdan dərhal sonra özlərinə gəlib görə bilərdilər ki, bu xalq belə güclüdür; Şərqin və Qərbin dəstəklədiyi bir rejimi yerindən qopara bilir; 2500 illik tarixə malik olan bir şahlığı devirib tullaya bilir. Onlar İran xalqından üzr istəyə, bizim xalqımıza vurduqları ziyanların mümkün miqdarını düzəldə bilərdilər. Əgər bu işi görsəydilər, onların İranla problemi həll olunardı. Baxmayaraq ki, İslam Respublikası hələ də İslam dünyasında edilən zülmlərə görə etirazçı qalardı, lakin onlarla İslam Respublikası

və İran xalqı arasında olan bu güclü ədavət bu formada olmazdı. Amma onlar bu işi görmədilər. Onlar nə üzr istədilər, nə şah üsul-idarəsinin süqutundan ibrət aldılar, hətta həmin ilk aylardan xəncəri üstdən bağladılar, səfirlikləri İslam Respublikasını çökürtmək və məğlub etmək üçün təxribat mərkəzi, casus yuvası, onu-bunu təhrik etmək üçün şübhəli əlaqələr mərkəzi oldu. Amerikalılar bu böyük səhvi, sonra da İslam Respublikasına, bizim əziz xalqımıza və bizim ölkəmizə qarşı bacardıqlarını və əllərindən gələni etdilər. Onun bir nümunəsi Təbəsə hücumdur; bir nümunəsi Fars körfəzində üç yüzə yaxın insanın ölümünə səbəb olan sərnişin təyyarəmizi vurmalarıdır; sərnişin təyyarəsini vurub suya saldılar. Bir nümunəsi bizim neft platformalarımıza hücumdur; Reyqanın dövründə bizim Fars körfəzindəki neft platformalarımıza hücum etdilər. Bir nümunəsi xəbis Səddama hərtərəfli yardımlardır; müharibədə onu bizə qalib etmək və İslam Respublikasına zərbə vurmaq istəyirdilər. Əgər Amerikanın cinayətlərinə dair bu növ işlərin listini yazsaq, bir kitab olar. Bir dəfə Amerikanın Müdafiə nazirlərindən biri onların ürək sözünü

dedi; dedi ki, biz İran xalqının kökünü kəsməliyik. Diqqət yetirirsiniz? İran xalqının kökünü, İran hökumətinin, İslam Respublikasının yox. O düzgün anlamışdı ki, İslam Respublikası xalqdır, İslam Respublikasının məmurları bütün İran xalqıdır. Buna görə deyirdi ki, İran xalqının kökünü kəsməliyik. Bu, amerikalıların üsulu idi. Onlar əllərindən gələn hər bir işi gördülər.

Tarixin həqiqətən müstəsna şəxsiyyəti olan böyük imamımız bunların hamısının qarşısında dedi: "Nə qədər təxribat hazırlasanız, öz zərərinizə bitəcək; İslam Respublikası geri çəkilməyəcək və Amerika heç bir qələt edə bilməyəcək". Bu, hegemonluqdur. İslam Respublikası heç bir dövlətdən utanıb-çəkinmir, əli ölkənin əzəmətli maddi və insani qaynaqlarından kəsilən və bacardığı qədər təxribat aparan isə Amerika dövləti idi. Amerika dövləti İslam Respublikası quruluşu və İran xalqı əleyhinə otuz il təxribat aparmış, zərbə vurmuş, müxtəlif tədbirlər düşünmüş və bacardığı hər bir işi görmüşdür. Elə bir iş yoxdur ki, siz amerikalıların bacardığını, lakin etmədiyini düşünəsiniz. Onlar mümkün olan hər

bir işi görmüşlər. İndi siz görürsünüz ki, bu qarşıdurmanın nəticəsi İran xalqının daha artıq çiçəklənməsi, İslam Respublikasının daha artıq inkişafı, bu ölkənin və bu quruluşun günbəgün güclənməsi olmuşdur, ziyan görən isə onlardır. Bu müddətdə hərdən zahirən barışıqçı olan bəzi sözlər də dedilər, amma nə zaman İslam Respublikası məmurlarının üzünə təbəssüm etdilərsə, diqqət edəndə arxalarında bir xəncər gizlətdiklərini, təhdiddən əl çəkmədiklərini və niyyətlərinin dəyişilmədiyini gördük. Taktiki gülüş, taktiki təbəssüm və gülərüzlülük isə yalnız uşaqları aldadır. Bu qədər təcrübəli olan böyük bir xalq və belə bir xalqın seçilmiş məmurları aldansalar, gərək çox sadəlövh olsunlar; ya gərək sadəlövh olsunlar, ya da nəfslərinin əsiri olub rahat, xoş və sağlam həyat arzulasınlar, düşmənlə razılaşmaq istəsinlər. Əks təqdirdə, ölkə məmurları sayıq, diqqətli, təcrübəli və püxtələşmiş olsalar, bütün varlıqları ilə xalqın mənafeyinə könül versələr, təbəssümə aldanmazlar. Amerikanın bu yeni prezidenti gözəl sözlər dedi, bizə də bir-birinin ardınca şifahi və yazılı xəbərlər yolladı ki, gəlin səhifəni çevirək, gəlin yeni vəziyyət düzəldək, gəlin

dünya problemlərinin həllində bir-birimizlə həmkarlıq edək; hətta bu həddə. Biz də dedik ki, öncədən mühakimə yürütmürük, biz əmələ baxacağıq. Dedilər ki, dəyişiklik yaratmaq istəyirik. Dedik çox gözəl, dəyişikliyi görək. Fərvərdin ayının birində (21 martda) Məşhəddə etdiyim çıxışımda dedim ki, əgər çuqun pəncə üzərindən məxmər əlcək geyib əlinizi uzatsanız, biz əlimizi uzatmayacağıq. Mən orada bu xəbərdarlığı etdim. İndi səkkiz ay ötür. Bu səkkiz ayda bizim gördüyümüz bunların dildə bildirdiklərinin əksi olmuşdur. Məsələnin zahiri budur ki, gəlin müzakirə aparaq, lakin müzakirənin kənarında təhdid var: əgər müzakirə bu ideal nəticəyə çatmasa, belə olsun, elə olsun. Bu müzakirədir?! Bu, canavar və siçan rabitəsidir. İmam dedi ki, canavar və siçan rabitəsin istəmirik. Gəlin bizimlə bir stol arxasında oturub filan mövzu, məsələn nüvə məsələsi barədə müzakirə aparın, lakin şərti bu olsun ki, bu müzakirə müəyyən nəticəyə çatsın, məsələn ölkə nüvə fəaliyyətindən əl çəksin; əgər bu nəticəyə çatmasa, belə olsun, elə olsun. Bu təhdiddir.

Mən təəccüb edirəm ki, nə üçün keçmişdən ibrət almırlar, nə üçün bizim xalqımızı tanımaq istəmirlər. Məgər bilmirlər ki, bu xalq dünyada iki supergücün olduğu və yalnız İslam Respublikası ilə düşmənlikdən başqa təxminən bütün məsələlərdə bir-biri ilə müxalif olduqları zaman - bu iki supergüc, yəni Amerika və keçmiş sovetlər İslam Respublikasına qarşı əlbir olmuşdular - onların qarşısında dayanan və hər iki supergücü diz çökürən xalqdır?! Siz nə üçün ibrət almırsınız? Bu gün siz ozamankı kimi qüdrətli deyilsiniz, İslam Respublikası isə ozamankından bir neçə dəfə qüdrətlidir, amma yenə bu dillə danışırsınız. Hegemonluq budur: bir xalqla təkəbbürlü mövqedən danışmaq, təhdidlə işlərini görmək; "əgər belə etməsəniz, belə olacaq". Bizim xalqımız da deyir ki, biz müqavimət göstərəcəyik.

İslam Respublikasının istədiyi onun məntiqli hüququndan artıq deyil. İslam Respublikası öz müstəqilliyini istəyir, öz azadlığını istəyir, özünün milli maraqlarını istəyir, ölkədə elm və texnologiyanın inkişafını istəyir; bunlar bu xalqın hüquqlarıdır. Kim bu hüquqa əl uzatsa,

İran xalqı bütün vücudu ilə onun qarşısında dayanacaq və onu diz çökürdəcək.

Amerika hegemonluqdan, xalqların işlərinə yersiz müdaxilələrdən əl çəkəcəyi və digər dövlətlər kimi bir dövlət olacağı gün bizim üçün də digər dövlətlər kimi bir dövlət olacaq. Amma nə qədər ki, hələ də İrana qayıtmaq, keçən günləri qaytarmaq, tarixi dəyişdirmək və zamanı geri qaytarmaq tamahındadırlar, bizim ölkəyə hakim olmaq istəyirlər, bizim xalqımızı heç bir vasitə ilə geri çəkilməyə vadar edə bilməyəcəklər; bunu bilsinlər. Seçkilərdən sonra baş verən bu hadisələrlə də könüllərini xoş etməsinlər. İslam Respublikası bunlardan daha güclü, dərin və köklüdür. İslam Respublikası olduqca daha ağır hadisələrlə üzləşmiş və hamısına üstün gəlmişdir. Ya sadəlövh, ya pis və çirkin niyyəti olan, ya da o qədər də pis niyyəti olmayan, lakin sadəlövhlük edən və məsələləri səhv anlayan dörd nəfər İslam Respublikasına qarşı çıxmışdır. Bunlar bizim ölkəmizdə Amerika üçün qırmızı xalça sərə bilməzlər. Bunu bilsinlər ki, İran xalqı möhkəm dayanmışdır.

## İslam Respublikasını və onun dünya siyasətinə gətirdiyi yeni sözü tanımaq

İslam Respublikası dünya siyasətinə yeni söz gətirdi. Bu yeni söz otuz il ötəndən sonra bu gün dünyanın siyasi leksikonunda hələ də yeni və cazibəli bir sözdür. Buna görə görürsünüz ki, xalqlar İslam Respublikasına qarşı əhəmiyyətli yanaşırlar, sevgi bəsləyirlər. Siz 85 faizli bir seçki keçirəndə müxtəlif ölkələrdə yaşayan xalqlar və İslam Respublikasını sevənlər sevinir, şüar verir və bunu bildirirlər. Biz müxətəlif yollarla bunlardan xəbərdar oluruq. Düşmən bu seçkiləri, xalqın bu fəallığını, bu böyük siyasi qələbəni korlamaq üçün şayiə yayanda, böhtan atanda, ölkənin bir tərəfində iğtişaş törədəndə nigaran olduqlarını görürük. Xalqlar nigaran olurlar; Livanda, Pakistanda, Əfqanıstanda və başqa harada şiə varsa, harada ixlaslı müsəlman varsa, ölkəmizin vəziyyətinə görə nigaran olurlar. Bu, İslam Respublikası təfəkkürünün İslam dünyasında aktiv iştirakının göstəricisidir.

İslam Respublikasının iki hissəsi var: Respublikadır - yəni xalq hakimiyyətidir; İslam

quruluşudur - yəni ilahi dəyərlərə və ilahi şəriətə əsaslanır.

Xalq quruluşudur - yəni bu quruluşun təşkil olunmasında, dövlət məmurlarının iş başına gəlməsində xalqın rolu var, məsuliyyət hiss edir və kənarda qalmır. Xalq quruluşudur - yəni quruluşun məmurları xalqdandırlar, xalqa yaxındırlar, aristokrat xislətləri yoxdur, xalqdan ayrılıq, xalqa etinasızlıq və təhqir xislətləri yoxdur. Bizim xalqımız uzun əsrlər boyu öz haqsız hakimlərində aristokratlıq, istibdad və diktatorluq xislətini təcrübə edib. Respublika dövrü isə belə ola bilməz. İslam Respublikası dövrü xalqdan, xalqla olan, xalq tərəfindən seçilən, xalqın yanında duran və rəftarı xalqın rəftarına bənzəyən insanların hakimiyyəti dövrüdür. Xalq hakimiyyətinin mənası budur. Xalq hakimiyyətidir - yəni xalqın etiqadlarına, heysiyyətinə, kimliyinə, şəxsiyyətinə və ucalığına hörmət göstərilir.

İslam quruluşudur - yəni bu dediklərimizin hamısının mənəvi dayağı var, sekulyar, dinə yad, dindən ayrı və bəzən antidin olan demokratik hökumətlərdən deyil. İslam quruluşudur - yəni xalq dünyası üçün işləyib

çalışanda da əslində ilahi iş görür; cəmiyyət üçün işləyənlər, quruluşun güclənməsi üçün işləyənlər, bu quruluşun, bu ölkənin sözünün nüfuzu və bu quruluşun sözünün ucalması üçün işləyənlər Allah üçün işləyirlər. Bu çox dəyərli və yeni bir şeydir. Dünya peyğəmbərlərdən və erkən İslam çağından bu günə qədər belə bir şey görməyib. Bu kiçik məsələ deyil. Bunun düşmənləri var; dünya diktatorları bu quruluşla düşməndirlər; istismarçılar və xalqların hüququna təcavüz edənlər bu quruluşla düşməndirlər. Onların düşmənliyini gözləmək lazımdır. Lakin bu xalq bu düşmənliklərin onun müqavimətinə təsir göstərə bilmədiyini göstərmişdir. Düşmənlər otuz ildir düşmənlik edirlər və İran xalqı müqavimət göstərir. Bunun nəticəsində İran xalqı heyrətamiz şəkildə inkişaf etmişdir. Bu inkişaf bundan sonra da davam edəcək.

## İxtilaf yaratmaq istəyən düşməni unutmamaq

Düşmənin əsas xətlərindən biri təfriqə məsələsidir. Siz haqlı olaraq onun üzərində dayandınız, məruzədə də deyildi. Dini

ekspertlərin son bəyanatında da birlik məsələsinə toxunulmuşdu. Bu çox mühüm məsələdir. Xalqın birliyi və təfriqə yaratmaq üçün görülən işlər çox mühüm məsələlərdir. Biz xalqın ümumi birliyinin əlamətlərini görməkdəyik. Siz ramazan ayında cümə namazlarını gördünüz, Qüds gününü gördünüz, Fitr bayramı namazlarını gördünüz. Necə möhtəşəm! Yalnız Tehranda yox, Məşhəddə, İsfahanda, Kermanda, Təbrizdə və müxtəlif bölgələrdə də misilsiz izdihamlar göründü. Bəlkə İslam tarixi boyu bir ölkənin müxtəlif yerlərində heç zaman Fitr bayramı namazı belə əzəmətli və möhtəşəm keçməmişdi. Bu gün bizdə bunlar var. Bunların hamısı xalqın birliyinin və həmrəyliyinin əlamətidir, xalqın cüzi ixtilaflara rəğmən, təmayül və mənsubiyyətdə yekdil olduğu müştərək bir nöqtənin mövcudluğunu göstərir. Xalqın qəlbi bu nöqtəyə yönəlmişdir. Bu nöqtə də dindir, İslam prinsipləridir, uca dəyərlərdir, Allahın dinidir. Bu çox mühüm məsələdir.

Hamı bu birliyin qarşısında baş əyməlidir. Lakin təəssüf ki, cəhalət və qəflət səbəbindən bəzilərinin ayrılıqdan dəm vurduğunu görürük.

Bu işlər həqiqətən digər səbəblərdən daha çox qafillikdən irəli gəlir. Bu, mühüm məsələdir. Dini birlik, milli birlik, siyasi üsul birliyi yaratmaq məsələsi mühüm məsələlərdir. Çalışmaq lazımdır. Düşmənin xətlərindən biri təfriqə salmaqdır. Harada imkanları çatsa, hansı səviyyədə bacarsalar, müxtəlif təbəqələrdə - məmurlarda, xalqda, ruhani qrupları arasında, universitet qrupları arasında, digər ictimai qrup, cəmiyyət və məzhəblər arasında ixtilaf yaratmaq istəyirlər. Siz cəmiyyətdə bunun çoxlu nümunələrini müşahidə edirsiniz. Düşmən təfriqə salmaq yolunu tutub.

## Dostu və düşməni tanımaqda səhvə yol veməmək

Bu gün bizə hər şeydən çox sayıqlıq, dostu və düşməni tanımaq lazımdır. Dostu düşmənlə səhv salmayın. Məbada dost və düşməni qarışdırasınız. Məbada düşmənlə lazım olan rəftarı dostla edəsiniz. Bu bütün cinahlara müraciətdir.

İslam quruluşu xalqın təhlükəsizliyini pozanlara qarşı sözsüz ki, tədbir görəcək. Bu, quruluşun vəzifəsidir. İslam quruluşu icazə

verməyəcək ki, kimlərsə düşmənin hiylə və təxribatına uyub xalqın həyatını korlasınlar, asayişini pozsunlar, gənclərini təhdid etsinlər. Bu ölkənin övladları əzizdir; hamı əzizdir. Quruluş buna icazə verməyəcək.

Məbada düşməni dostla qarışdırasınız. Dostu bir səhvinə görə düşmən edə və qarşı tərəfdən, bəzi adamlar qan düşmənlərini dost bilib sözlərini dinləsinlər.

Düşmən törətdiyi bu fitnələrdə suyu bulandırıb balıq tutmağa ümid bağlamışdı. Allaha şükür olsun ki, bu fitnələr bitdi. Haqqın və sayıq xalqın qarşısında hər bir fitnə məhv olacaq, toz-torpaq yatacaq. Həmişə belədir.

Bir qrup düşmən və bir qrup qafil insan tərəfindən yaradılmış kənar məsələlər qurtaracaq, əsas məsələ isə qalacaq. Əsas məsələ odur ki, möhtəşəm bir seçkidə İran xalqının təxminən qırx milyonu iştirak etdi. Əsas məsələ budur. İnqilabdan otuz il sonra qırx milyon insan özünün quruluşa etimadını və gələcəyə ümidini bu formada göstərdi. Bu qalacaq. Əsas məsələ budur ki, xalqın iyirmi dörd milyondan artıq səsi ilə bir prezident seçilmişdir. Əsas məsələlər bunlardır. Kənar məsələlər, toz-

dumanlar, qatqılar, düşməni sevindirən iş və sözlər bitəcək, amma bu həqiqət qalacaq: "Köpük heç bir şey olmadığı üçün uçub gedər, insanlara fayda verən bir şey isə yer üzündə qalar".

## Anı tanımaq

Bəzi şəxs və təşkilatların problemi budur: imansız, həvəssiz və sevgisiz deyillər, ancaq anı tanımırlar. Anı tanımaq və ehtiyacı bilmək lazımdır. Kufədə qəlbləri İmam Hüseynə (ə) imanla dolu olan və Əhli-beytə (ə) məhəbbət bəsləyən insanlar vardı, lakin onlar bir neçə ay gec səhnəyə çıxdılar və hamısı şəhid oldular. Allahın yanında mükafatları da var, lakin görməli olduqları iş bu deyildi. Onlar zamanı tanımadılar, Aşuranı tanımadılar, işi zamanında görmədilər. Əgər təvvabin (tövbə edənlər) Aşuradan bir müddət sonra gördükləri işi cənab Müslimin Küfəyə gəldiyi zaman etsəydilər, vəziyyət dəyişərdi, hadisələr başqa məcrada hərəkət edərdi. Anları tanımaq və ehtiyac anında işi görmək çox mühüm məsələdir.

Bütün əzəməti ilə yanaşı 22 bəhməndə xalqın yürüşü normal və tanınmış bir işdir; baş verməsi gözlənilir və baş verir. Lakin 1999-cu ilin 23 tiri

adi və gözlənilən bir iş deyildi. Bu şuranın o şəraitdə bu işin lazım olduğunu bilməsi, anlaması və onu yerinə yetirməsi mühüm məsələ idi. Builki 9 dey də belədir. Zamanı tanımaq, ehtiyacı anlamaq, münasib və ehtiyaclı anda meydana atılmaq əsas məsələdir. Mömin belə olmalıdır ki, varlığı təsirli olsun və görməli olduğu görə bilsin.

Allaha şükür olsun ki, Təbliğat komitəsinin Əlaqələndirmə şurası bu xüsusiyyətə malik olduğunu göstərmişdir. Həm birinci onillikdə o dövrün müxtəlif hadisələri zamanı - müqəddəs müdafiə dövründə, müqəddəs müdafiədən öncə və sonra, həm də imamın vəfatından sonrakı müxtəlif məsələlərdə. Bunlar bizim tariximizdə uca zirvələr yaratdı. Bu unudulmaz zirvələrdən biri builki 9 dey idi.

## İfrat və təfritdən çəkinmək

Bir məsələ də hövzənin aktiv və inqilabçı gənclərinə müraciətdir. Hövzə əksərən həmin inqilabçı tələbələrdən və aktiv gənclərdən ibarətdir. Mənim əzizlərim! Gələcək sizə məxsusdur. Ölkənin ümidi sizsiniz. Siz çox ehtiyatlı olmalısınız. Düzdür, inqilabçı və gənc

tələbə əməl adamıdır, iş adamıdır, bu gün-sabah edən deyil, amma ehtiyatlı olmaq lazımdır. İnqilabçı hərəkət elə olmalıdır ki, ona ifratçılıq damğası vurula bilməsin. İfrat və təfritdən çəkinmək lazımdır. İnqilabçı gənclər bilsinlər ki, kənara çəkilməyin, sükutun və laqeydliyin ziyan vurduğu kimi, ifratçılıq da ziyan vurur. Ehtiyatlı olun ki, ifratçılıq baş verməsin. Əgər bizə verilən məlumatlar – nə zamansa hövzənin bəzi müqəddəslərinə, böyüklərinə, bəzi təqlid müctəhidlərinə hörmətsizlik edilməsi düzgün olsa, bilin ki, bu, şübhəsiz, sapqınlıqdır, səhvdir. İnqilabçılıq bunları tələb etmir. İnqilabçı agah və diqqətli olmalı, dövrün şəraitini yaxşı dərk etməlidir. Məsələ bu qədər sadə deyil ki, birini rədd, birini təsdiq, birini qəbul edək. Belə olmaz. Siz diqqətli olmalı, inqilabçı fəallığını qorumalı, problemlərə dözməli, digərlərinin tənəsinə görə üz çevirməməli, amma xamlıq da etməməlisiniz; ethiyatlı olun, məyus olmayın, səhnədə qalın, amma diqqətli və ehtiyatlı olun ki, sizin fikrinizcə bəzi şəxslərin etiraza layiq hərəkətləri sizi qəzəbləndirməsin, özünüzdən çıxarmasın. Məntiqlə və ağılla rəftar etmək lazımdır. Əlbəttə, bunu da hamıya tövsiyə edirəm ki, inqilabçı

qüvvələri ifratçılqda ittiham etməsinlər. Bəziləri bunu istəyirlər; inqilabçı qüvvəni, inqilabçı gənci, inqilabçı tələbəni, hər hansı səviyyədə olan inqilabçı alimi və müəllimi ifratçılıqda ittiham edirlər. Xeyr, bu da düşmənin idarə etdiyi bir işdir; aydın məsələdir. Deməli, nə o tərəfdən, nə bu tərəfdən.

# Avamlığın nəticələri

## 1. Avamlıq səbəbindən xalqlar üçün problem və səhvlərin yaranması

Xalqların başına gələn bəlalar çox zaman avamlıqdan irəli gəlir. Görürsünüz ki, öz cəmiyyətimizdə də bəzi adi insanlar və daha çox aparıcı şəxslər səhvlər edirlər. Aparıcı şəxslərin daha az səhv etməsi gözlənilir, lakin səhvləri say baxımından olmasa da, nəticə etibarilə adi camaatın səhvlərindən çoxdur. Bəzi insanların bu səhvləri agahlığın olmamasına görədir; hamısını demirik, amma çoxları belədir.

## 2. Avamlıq səbəbindən pis yola düşmək ehtimalı

Əgər agahlıq olmasa, insanın niyyəti yaxşı olsa da, bəzən pis yola qədəm qoyar. Siz döyüşdə yolu tanımasanız, xəritəni bilməsəniz, əlinizdə kompas olmasa, bir də görərsiniz ki, düşmənin mühasirəsinə düşmüsünüz, yolu səhv salmısınız, düşmən sizi əhatəyə almışdır. Bu kompas sözügedən agahlıqdır.

## 3. Pis niyyət olmadan düşmənin xeyrinə danışmaq

Aparıcı və görkəmli şəxslər yalnız özlərində yox, digərlərində də bu agahlığı yaratsınlar. Təəssüf ki, hərdən bəzi görkəmli şəxslərin özlərinin də agahlıqdan uzaq olduğu görünür. Əsla anlamadan və bilmədən birdən-birə düşmənin - hər hansı bir yolla İslam Respublikasını məhv etməyə çalışan cəbhənin xeyrinə bir söz deyirlər. Aparıcı və görkəmli şəxsdir, pis adam da deyil, pis niyyəti də yoxdur, amma belədir. Bu, avamlığa görədir. Xüsusən siz gənclər yaxşı əsərlər oxumaqla, diqqətlə, etimadlı və püxtə insanlarla söhbət etməklə bu

avamlığı yox edin. Əlbəttə, təqlidçi söhbətləri nəzərdə tutmuram; demirəm ki, nə desələr, qəbul edəsiniz. Lakin dəlillə insanı qane edən, insan zehnini razı salan şəxslər var.

# Agahlıq əldə etməyin şərtləri

## Sayıqlığı daha çox qorumaq

Amerikadan tutmuş bəzi Avropa ölkələrinə qədər dünyanın bir çox hökumət başçılarının bütün problemləri qurtarıb və yalnız İran problemləri qalıb. İran xalqına aid olan sırf daxili bir məsələdə çənələrini tərpədir və absurd fikirlər bildirirlər. Bilmirlər ki, onlar hansı siyasi mövqeyə ayaqlarını qoysalar, İran xalqı oranı nəcis sayacaq.

Onların tərəfdarlığı əks nəticə verir. Xalq özündən soruşur ki, otuz ildir İslam inqilabı əleyhinə çalışan, bu ölkənin və bu xalqın əleyhinə bütün vasitə və imkanlardan istifadə edən bu düşmənlərin birdən-birə qayıkeş olmasına səbəb nədir? Xalq təxribatı anlayır. Bizim xalqımız xəbisliyi dərk edir. Onların problemi də budur. Əgər diqqətsiz və avam bir xalqla üz-üzə gəlsəydilər, problemləri olmazdı.

Lakin sayıq və təcrübəli bir xalqla üz-üzə qalmışlar.

Bizim otuzillik təcrübələrimiz xalqı agah etmişdir; bunları tanıyırlar. Bunlar səkkizillik müqəddəs müdafiə dövründə bu xalqın əleyhinə cinayət törədiləndə, şəhərlər bombalananda, evlər dağıdılanda, kimyəvi bombalar atılanda və günahsız insanlar öldürüləndə nəinki İran xalqına ürəkləri yanmayan, hətta bu xalqın düşməninə kömək də edən dövlət və hökumətlərdir. Bizim xalqımız bunu görmüşdür. Bunlar unudulası məsələlər deyil. İndi isə qayğıkeş olmuşlar. Xalq bunların pəncələrindəki məzlum xalqlarla - Əfqanıstan, İraq, Pakistan və Fələstin xalqları ilə rəftarını görür. Bunların caynağı haraya batdısa, dırnaqları haraya ilişdisə, bacardıqları qədər zərbə vurdular. Bunlar xalqa rəhm etmirlər, bunlarda humanistlik yoxdur. İndi İran xalqına, ölkə daxilində kiməsə, yaxud kimlərəsə tərəfdar olmuşlar.

Bu işlərdə onların qərəz və məqsədlərinin nə olduğu bəllidir. Xalq bunu dərk edir. Siz əgər bir və həmrəy olsanız, inqilabın bizim xalqımıza verdiyi və xalqımızın otuz il qoruduğu bu güclü

ruhiyyəni saxlasanız, onların hiylə və düşmənliyi sizə heç bir təsir göstərməz və onlar İran xalqına zərər yetirə bilməzlər.

Bizim aparıcı adamlarımız da sayıq olsunlar. Aparıcı şəxslər bilsinlər ki, onlara kömək edən hər bir söz, hər bir hərəkət və hər bir təhlil xalqın əksinə hərəkət etməkdir. Bizim hamımız çox ehtiyatlı olmalıyıq; çox ehtiyatlı olmalıyıq: danışığa, mövqe bildirməyə, nəyi deməyin və nəyi deməməyin lazım olduğuna diqqət yetirməliyik. Bəzi sözləri demək lazımdır; əgər deməsək, vəzifəmizə əməl etməmişik. Bəzi sözləri söyləməmək, deməmək lazımdır. Əgər desək, vəzifənin ziddinə əməl etmiş olarıq. Aparıcı şəxslər imtahan otağındadırlar. Böyük bir imtahan gedir. Bu imtahandan kəsilməyin nəticəsi yalnız bir il geri düşmək deyil, süqutdur. Əgər buna düçar olmaq istəmiriksə, insanı bəndəliyə dəvət edən ağlı meyar seçməliyik.

Universitet sayıq olmalıdır. Ölkəsini, ölkəsinin və öz nəslinin gələcəyini sevən mömin və müsəlman tələbə sayıq olmalıdır. Bilin ki, bunlar plan hazırlayır və əlbəttə ki, məğlub olurlar. Mən indi sizə deyirəm ki, bunlar sonda məğlub olacaqlar. Lakin mənim və sizin ayıqlıq və

sayıqlıq dərəcəmiz onların vurduğu ziyanın miqdarına təsir göstərə bilər. Əgər sayıq olsaq, zərər yetirə bilməzlər; əgər diqqətsiz olsaq, hisslərə qapılsaq, düşünməmiş hərəkət etsək, yaxud yuxuya qalsaq və bu kimi vəziyyətlərə düşsək, sonda uğur qazana bilməsələr də, vurduqları zərər və ziyan yüksək olacaq.

Ehtiyatlı olun ki, universitet bu kiçik və dəyərsiz siyasi hadisələrdə təsir altına düşməsin, onun elmi işi zəifləməsin, bizim laboratoriyalarımız, siniflərimiz, tədqiqat mərkəzlərimiz ziyan görməsin; diqqətinizi toplayın. Yəni sizin qarşınızdakı mühüm məsələlərdən biri universitetlərdə elmi hərəkəti qorumaqdır. Düşmənlər çox istəyirdilər ki, bizim universitetlərimiz ən azı bir müddət tətil olsun, zəifləsin, orada iğtişaş yaransın. Bu həm siyasi baxımdan, həm də uzunmüddətli iş baxımından onlar üçün ideal bir nöqtədir. Sizin elminiz uzunmüddətli iş baxımından onların zərərinə olduğuna görə elmdən uzaqlaşmağımızı istəyirlər.

Agah və sayıq olmaz lazımdır. Xalqlar həssas zamanlarda düşmənin nə iş gördüyünü bilməlidirlər. Hərbi yolla, təhdid və

qorxutmalarla bir xalqın öhdəsindən gələ bilmədiklərini gördükdə başqa yollarla - ixtilaf yaratmaqla, düşmənlik salmaqla və digər bəhanələrlə pozuculuq törətməyə başlayırlar. Biz bunları anlamalıyıq.

Bu gün dünyanın hegemon təbliğatının mərkəzləşdiyi nöqtələrdən biri ölkə daxilindəki ixtilaflardır. Bəzi adamlar Allah qarşısında cavab verməlidirlər. Onlar elə işlər görürlər ki, düşmən ölkə daxilində parçalanmanın olduğunu düşünür və cürətlənir. Məsələ burasındadır ki, düşməni tanımalı, onun hiyləsini anlamalı, nə dediyimizi və düşmənin bizim bu sözümüzdən necə istifadə edib cürətlənə, həvəslənə, ruh yüksəkliyi əldə edə və öz müdaxiləsi üçün yollar aça biləcəyini bilməliyik. Bunlara diqqət yetirmək lazımdır.

## Dərkdə şücaət və fitnəkarlardan qorxmamaq

## Qorxu zamanı insanın dərkində yanlışlığın yaranması

Bizim yalnız əməldə şücaətə ehtiyacımız yoxdur, dərkdə də şücaətə ehtiyacımız var. Fəqihcəsinə dərkdə şücaətə ehtiyac var. Əgər şücaət olmasa, hətta dərkdə - deduksiya müqəddimələrinə dair düzgün dərkdə də problemlər yaranacaq. Bəzən insan böyük müqəddiməni düzgün anlayır, amma kiçik müqəddimədə səhv edir. Din əsaslarına, dini mövzulara, həmin ümumi məfhumlara uyğun olan real nümunələrə - yəni deduktiv müqəddimələrə dair bu düzgün dərk üçün bizim şücaətli olmamız və qorxmamamız lazımdır. Əks təqdirdə, malımızdan, canımızdan, hörmətimizdən qorxu, düşmən qarşısında sükut, şəraitdən qorxu - əgər bu sözü desək, bizə qarşı çıxarlar; əgər bu sözü desək, bizə filan ləkə yapışar - bu qorxular insanın dərkini də pozur. Bəzən insan bu qorxulara və belə mülahizələrə görə məsələni düzgün anlamır, düzgün dərk və

həll edə bilmir və səhvə düşür. Odur ki, "Allahdan başqa heç kəsdən qorxmazlar" məsələsi çox mühüm məsələdir. "O kəslər ki, Allahın risalətini təbliğ edər, Ondan qorxar və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir". Bu şərafətli ayədən bəlli olur ki, təbliğin şərti qorxmamaqdır: "Allahdan başqa heç kəsdən qorxmazlar". Deyirsən ki, bu işi görsəm, dünyada aldana bilərəm. Cavab budur: "Allah özü haqq-hesab çəkməyə kifayətdir". Hesabı Allaha tapşırın, qoyun Allah sizin üçün hesab çəksin.

## Təqvanın və fitnəkarlardan qorxmamağın zəruriliyi

Hesabı Allaha tapşırın, qoyun Allah sizin üçün hesab çəksin. Əgər Allahdan qorxmaq əvəzinə xalqın mühakimələrindən qorxsaq, problem yaranacaq. Çünki Allah-Taaladan qorxmaq təqvadır. Əgər bunu kənara qoyub xalqdan qorxsaq, o zaman Allah-Taalanın dediyi "ayırd edən" də olmayacaq: "Əgər Allahdan qorxsanız, O sizə haqla-nahağı ayırd edən (bir nur) verər". Bu, təqvadan irəli gəlir. İnsan üçün həqiqətin aydın olması təqvanın nəticəsidir.

Mənim fikrimcə bu çox mühüm məsələdir; maldan, candan, xalqın danışmasından, hörmətdən, dedi-qodulardan, sözlərdən, ittihamlardan və bu kimi şeylərdən qorxmaq çox mühüm məsələdir. Bu məsələ o qədər əhəmiyyətlidir ki, Allah-Taala Peyğəmbərinə (s) müraciət edib bu işdən çəkindirir: "(Ey Peyğəmbər!) Xatırla ki, bir zaman Allahın (İslam dininə yönəltməklə) nemət verdiyi və sənin özünün (köləlikdən azad etməklə) nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): "Zövzəni saxla (boşama), Allahdan qorx!" – deyir, Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayır və adamlardan (onların "Peyğəmbər oğulluğunun boşadığı qadınla evlənir", – deyəcəklərindən) qorxurdun. Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq Allahdır. Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə (onu boşadıqda) səni onunla evləndirdik ki, oğulluqları xanımlarını boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik olmasın! Allahın hökmü mütləq yerinə yetər!" Xalqın danışmasını, irəli sürəcəkləri ittihamı

nəzərə almaq olmaz: "Sənin qorxmalı olduğuna ən çox layiq Allahdır".

## İmam Xomeyninin şücaəti

Mənim fikrimcə, imamın müxtəlif zəfərlərini o həzrətə ərməğan edən amilllərdən biri onun şücaəti idi. Bu şücaət onun elmi, mənəvi, siyasi və ictimai nailiyyətlərinə, qəlblərin cəlb olunmasına bais oldu. Bu həqiqətən möhtəşəm idi. Onun şücaəti elə bir həddə idi ki, heç bir şeyi nəzərə almırdı.

## Fitnəkarların və düşmənlərin aparıcı şəxsləri qorxutmağa çalışmaları

Hər halda, fitnə törədənlər görkəmli və aparıcı şəxslərin qəlbində Allah qorxusunun yerinə öz qorxularını oturtmaq, yəni onlardan qorxmalarını istəyirlər: "O kəslər ki, xalq onlara: "Camaat (Əbu Süfyan və tərəfdarları) sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər" . Yəni daim bizə deyirlər: "Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!". Cavabı budur: "Allah bizə

bəs edər. O nə gözəl vəkildir". Nəticəsi də budur: "Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər" . Bu hissin, bu dərkin, bu ruhi və mənəvi həqiqətin nəticəsi budur: "Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər". Deməli, bu şücaətə malik olmaq lazımdır. Düşmən müxtəlif işlər görür, müxtəlif fəaliyyətlər göstərir. Bu gün mənim zənnimcə düşmən təxribatlarının əsas hədəfi aparıcı şəxslərdir; düşmənin hədəfi aparıcı şəxslərdir. Oturub onların zehnini dəyişdirmək üçün planlar cızırlar ki, bununla xalqı özlərinə çəkə bilsinlər. Çünki aparıcı şəxslər nüfuzludurlar və xalq arasında sözləri keçir. Mənim fikrimcə bu gün bizim və sizin əsas vəzifələrimizdən biri budur: Biz müxtəlif məsələlərə qarşı həm özümüzün, həm də dinləyicilərimizin agahlığını gücləndirməliyik.

İslam inqilabı çox köklüdür, çox güclüdür, onun çox möhkəm təməlləri var, Allah-Taala da bizim dayağımızdır. Mən dəfələrlə imamın dilindən söyləmişəm ki, buyurub: "Mən bu işə başlayan zamandan həmişə bir qüdrət əlinin işləri apardığını hiss etmişəm". Həqiqətən

belədir; insan bu ilahi qüdrət əlini görür. Əlbəttə, bu qüdrət əlinin bizimlə qohumluğu yoxdur; "Kim Allah üçün çalışsa, Allah da onun üçün çalışar"; "Əgər Allaha kömək etsəniz, O da sizə kömək edər"; "Allah Ona yardım edənlərə mütləq yardım edər". Biz ixlasla bu yolun xidmətində durmalıyıq; nəyimiz varsa, meydana gətirib bu yola təqdim edək; səyimizi və işimizi bu yola təqdim edək. Allah-Taala da mərhəmət göstərəcək, lütf edəcək. Bu gün də həmin iş görülüb. Allah-Taala mərhəmət göstərmiş, düşmənin daşı özünə qayıtmış, oxu özünə sarı yönəlmişdir. Onlar yaratdıqları təxribatdan bir nəticə əldə edə bilməmişlər.

Seçkilərdən sonrakı bu çaxnaşmalar agah və məlumatlı insanların fikrincə, şübhəsiz ki, düşünülmüş işlər idi. İnsan ölkənin və dünyanın məsələləri ilə tanış olan məlumatlı insanların hansi ilə söhbət edirsə, bunu anlayır. Mən srağagün ona dedim ki, bunlar düşünülmüş işlər idi. O da dedi ki, şübhəsiz. Yəni hamı başa düşür ki, bu iş planlaşdırılmışdı və qəfil bir iş deyildi. Məsələn kimsə qəfildən ucadan danışmadı. Yox, bu iş planlaşdırılmışdı, bir mərkəzdən yönəldilirdi və uğursuz bitdi. İnşallah bu

uğursuzluqları davam edəcək, lakin daim təxribat aparırlar.

## Fitnə zamanı kənara çəkilmək

Bunu da deyək: Bəziləri fitnə şəraitində "Fitnədə köşək kimi ol; nə minməyə beli, nə sağmağa südü var" cümləsini səhv anlayırlar. Elə bilirlər ki, bunun mənası fitnə yarananda və vəziyyət qarışanda kənara çəkilməkdir. Bu cümlədə ümumiyyətlə kənara çəkilməkdən söhbət getmir. Bunun mənası odur ki, fitnəkar heç zaman və heç bir yolla səndən istifadə edə bilməsin; "nə minməyə beli, nə sağmağa südü var". Nə minə bilsinlər, nə də sağa bilsinlər; ehtiyatlı olmaq lazımdır. Siffeyn döyüşündə cənab Əmmar Yasir qoşunun o tərəf-bu tərəfində daim müxtəlif qruplarla söhbət edirdi; çünki orada həqiqətən fitnə vardı, iki müsəlman qoşun bir-birinin qarşısında dayanmışdı. Böyük bir fitnə vardı və bir qrup adam çaş-baş qalmışdı. Əmmar daim aydınlatmaq işi ilə məşğul olurdu, o tərəf-bu tərəfə gedib müxtəlif qruplarla söhbətlər edirdi. Bunlar qeyd olunub və hamısı tarixdə var. Digər tərəfdən də Abdullah ibn Məsudun səhabələrindən olan bir qrup həzrətin

yanına gəlib deyir: "Ey Əmirəl-möminin – bundan belə çıxır ki, onun möminlərin əmiri olmasını qəbul edirdilər - biz bu döyüşdə şübhəyə düşmüşük". Biz çaş-baş qalmışıq. Bizi sərhədlərə göndər və icazə ver bu döyüşə qatılmayaq. Bu kənara çəkilmənin özü də sağılmadır, minilmədir. Bəzən sükut etmək, kənara çəkilmək, danışmamaq fitnəyə kömək edir. Fitnədə hamı aydınlatma işi görməli, hamının agahlığı olmalıdır. Ümidvarıq inşallah Allah-Taala bizi və sizi dediklərimizə və niyyətimizdə olanlara əməl edən etsin! Bunun üçün hamımıza uğur versin!

## Allah-Taalaya təvəkkül, etimad və inam

Bilin ki, qələbə sizinlədir, ilahi yardım sizinlədir. Təhdid edən bu supergüclərin, – onların daxili ardıcılları öz yerində - hegemon və təhdid mərkəzlərinin iqtidarlı və imanlı bir xalq qarşısında geri çəkilməkdən başqa çarələri yoxdur. Allah-Taalaya etimad edin, Ona nikbin olun. Allah təkidlə buyurur: "Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!" Şəksiz

və şübhəsiz, Allah-Taala Onun dininə və məqsədlərinə kömək edənlərə kömək edəcək. Bu doğru sözdur, doğru vəddir. Buna etimad edin və iqtidarla, yetərli əzmkarlıqla, mənəvi paklıqla, həm elmi və həm əxlaqi baxımdan özünüzü islah etməklə irəliləyin.

## Agahlığı artırmağa çalışmaq

Xüsusən siz gənclər yaxşı əsərlər oxumaqla, diqqətlə, etimadlı və püxtə insanlarla söhbət etməklə bu avamlığı yox edin. Əlbəttə, təqlidçi söhbətləri nəzərdə tutmuram; demirəm ki, nə desələr, qəbul edəsiniz. Lakin dəlillə insanı qane edən, insan zehnini razı salan şəxslər var.

## Səy və çalışma

Vəzifə çox ağır və böyükdür; ən mühüm vəzifə də təbliğat və izah etməkdir: "Onlar ki, Allahın risalətini təbliğ edər, Ondan qorxar və Allahdan başqa heç kəsdən qorxmazlar". Bu bir meyardır. Dərk etdiyiniz həqiqəti izah edin. Heç kim gözləmir ki, anladığınızın əksinə danışasınız. Xeyr, anladığınızı deyin, lakin anladığınızın düzgün olmasına çalışın. Çünki fitnə zamanı həqiqəti tapmaq, hadisənin ətrafını

tanımaq, hücum edəni və müdafiə olunanı, zalımı və məzlumu, düşməni və dostu tanımaq çətin olur.

## Ağlı meyar seçmək

Aparıcı şəxslər imtahan otağındadırlar. Böyük bir imtahan gedir. Bu imtahandan kəsilməyin nəticəsi yalnız bir il geri düşmək deyil, süqutdur. Əgər buna düçar olmaq istəmiriksə, insanı bəndəliyə dəvət edən ağlı meyar seçməliyik.

Ağıl bu siyasətbazlıqları tövsiyə etmir. Bunlar ağlın ziddinədir. Ağıl insanı doğru yola yönəldir. Siyasətbazlıqla ağıllı rəftar etdiklərini düşünənlər səhv edirlər. Xeyr, ağıl Allaha ibadət yolunu açan amildir. Özümüzlə Allah arasında meyar budur ki, bu sözü deməkdə ixlasımızın olub-olmadığına baxaq; görək Allahı düşünürük, yoxsa yox? Mən Allahdan ötrü və Allahın razılığı üçün danışıram, yoxsa sizin diqqətinizi cəlb etməkdən ötrü? Allahdan ötrüdür, yoxsa insanların ürəyindən ötrü? Meyar budur. Özümüzə müraciət edək. İnsan üçün ən yaxşı hakim onun özüdür. Özümüzü aldatmayaq, nə iş gördüyümüzü, nə dediyimizi və hansı hərəkəti etdiyimizi bilək.

## Anı tanımaq

Bəzi şəxs və təşkilatların problemi budur: imansız, həvəssiz və sevgisiz deyillər, ancaq anı tanımırlar. Anı tanımaq və ehtiyacı bilmək lazımdır. Kufədə qəlbləri İmam Hüseynə (ə) imanla dolu olan və Əhli-beytə (ə) məhəbbət bəsləyən insanlar vardı, lakin onlar bir neçə ay gec səhnəyə çıxdılar və hamısı şəhid oldular. Allahın yanında mükafatları da var, lakin görməli olduqları iş bu deyildi. Onlar zamanı tanımadılar, Aşuranı tanımadılar, işi zamanında görmədilər. Əgər təvvabin (tövbə edənlər) Aşuradan bir müddət sonra gördükləri işi cənab Müslimin Küfəyə gəldiyi zaman etsəydilər, vəziyyət dəyişərdi, hadisələr başqa məcrada hərəkət edərdi. Anları tanımaq və ehtiyac anında işi görmək çox mühüm məsələdir.

Sonuncusu bu 9 dey məsələsidir, ondan qabaqkı 10 il bundan əvvəl baş verən və burada işarə vurulan 23 tir hadisəsidir. O da anın ehtiyacı idi. Bu adi və normal bir iş deyildi. Bütün əzəməti ilə yanaşı 22 Bəhməndə xalqın yürüşü normal və tanınmış bir işdir; baş verməsi gözlənilir və baş verir. Lakin 1999-cu ilin 23 tiri

adi və gözlənilən bir iş deyildi. Bu şuranın o şəraitdə bu işin lazım olduğunu bilməsi, anlaması və yerinə yetirməsi mühüm məsələ idi.

Builki 9 dey hadisəsi də belədir. Zamanı tanımaq, ehtiyacı anlamaq, münasib və ehtiyaclı anda meydana atılmaq əsas məsələdir. Mömin belə olmalıdır ki, varlığı təsirli olsun və görməli olduğu görə bilsin. Allaha şükür olsun ki, Təbliğat komitəsinin Əlaqələndirmə şurası bu xüsusiyyətə malik olduğunu göstərmişdir. Həm birinci onillikdə o dövrün müxtəlif hadisələri zamanı - müqəddəs müdafiə dövründə, müqəddəs müdafiədən öncə və sonra, həm də imamın vəfatından sonrakı müxtəlif məsələlərdə. Bunlar bizim tariximizdə uca zirvələr yaratdı. Bu unudulmaz zirvələrdən biri builki 9 dey idi.

## Agahlıq əldə etmək üçün uzunmüddətli proqram hazırlamaq

Düşmən cəbhənin uzunmüddətli proqramı var. Onlar bu gün məğlub olduqlarına görə məyus olub əl çəkmirlər. Xeyr, növbəti on il, iyirmi il, qırx il üçün planlar hazırlayırlar. Gərək hazır olasınız.

Bizim uzunmüddətli proqramımız olmalıdır. Əlbəttə, uzunmüddətli proqram hazırlamağın yeri bura deyil. Düşüncə mərkəzləri, siyasi və mədəni mərkəzlər bu işlərlə məşğul olurlar. Onlar bu işləri görməlidirlər və görürlər də. Mənim ümumi şəkildə demək istədiyim budur ki, uzunmüddətli proqram üçün əsas şərt vardır. Mən bunu dəfələrlə demişəm. Burada da onun barəsində bir qədər söhbət etməyi lazım bilirəm. Bu, agahlıq məsələsidir.

Mən agahlıq barədə ötən il və ondan öncə çox söhbət etmişəm; digər şəxslər də bu haqda danışıblar. Gördüm ki, bəzi gənclər də bu sahədə çox yaxşı işlər görmüşlər. Mən yenə də agahlıq üzərində təkid etmək istəyirəm. Mənim təkidim əslində bu məqsədlədir ki, müraciət tərəfi, meydan sahibi və vəzifəyə məsuliyyətli olan sizin özünüz bu işlərlə və agahlıq əldə etməyə dair proqramlarla məşğul ola, bu mühüm ehtiyacı təmin edəsiniz.

## Meyar: Düşmənlərin qəzəblənməsinə, yaxud sevinməsinə diqqət yetirmək

Bu gün hələlik islamçılığın zirvəsi olan İslam Respublikası quruluşu qarşısında düşmən sıraları düzülmüşdür; beynəlxalq hegemonluq o sıraların mərkəzindədir, sionizm o sıraların mərkəzindədir. Bunlar açıq şəkildə İslamın qan düşmənləridir. Deməli, İslam Respublikasının da qan düşmənləridir. Bu bir meyardır. Əgər bu düşmənin xeyrinə bir hərəkət etsək və bir iş görsək, qafiliksə, ayılmalı və yanlış yol getdiyimizi bilməliyik. Əgər bir hərəkət etsək və bu hərəkətin düşməni qəzəbləndirdiyini görsək, yolumuzün düz olduğunu bilməliyik. Düşmənin İran xalqının inkişafına, sizin uğurlarınıza, İslam quruluşunun güclənməsinə qəzəbi tutur. Siz görün bizim işlərimizin hansı düşməni qəzəbləndirir. Düşməni qəzəbləndirən iş düzgün, onu sevindirən, həvəsləndirən, təbliğatda və siyasətdə daim uğrunda təkidlə çalışdığı iş isə səhv işdir. Bu meyarları diqqətdə saxlayın. Bunlar həqiqəti aydınlaşdırır. Çox zaman səhvlər qarşıya çıxanda onları bu meyarlarla aradan qaldırmaq mümkündür.

# Aparıcı şəxslərin vəzifəsi: həqiqətləri anlamaq, izah etmək, özlərində və digərlərində agahlıq yaratmaq

Görkəmli və aparıcı şəxslərin mühüm işlərindən biri maarifləndirmədir. Onlar həqiqətləri təəssübsüz şəkildə, qrup və cinah maraqlarının təsiri olmadan aydınlatmalıdırlar. Bunlar zərərlidir. Cinah və bu kimi məsələləri kənara qoyub həqiqəti anlamaq lazımdır. Siffeyn döyüşündə cənab Əmmar Yasirin mühüm işlərindən biri həqiqəti başa salmaq idi. Çünki qarşıdakı Müaviyə cinahı müxtəlif təbliğatlar aparırdı. Bu gün psixoloji müharibə adlanan məsələ yeni kəşflərdən deyil, onun üsulları fərqlənmiş, özü isə əvvəldən olmuşdur. Onlar bu psixoloji müharibədə çox püxtələşmişdilər. İnsan onların işlərinə baxanda psixoloji müharibədə necə peşəkar olduqlarını görür. Digər tərəfdən də zehinləri çaşdırmaq onları bərpa etməkdən asandır. Sizə bir söz deyəndə qəlbinizdə şübhə yaranır. Bədgümanlıq yaratmaq asan, onu beyindən silmək isə çətindir. Onlar da şübhə

yayır, bədgümanlıq yaradırdılar. Bu, asan idi. Bu tərəfdən özünü bu psixoloji müharibənin qarşısında dayanıb müqavimət göstərməyə borclu bilən şəxs cənab Əmmar Yasir idi. Siffeyn döyüşünün hadisələrində yazmışlar ki, atla cəbhənin o tərəf-bu tərəfinə və öz qoşunlarının müxtəilf sıralarına gedir, bugünkü sözlə desək, bir-birindən ayrı düzülmüş batalyon, yaxud alayların hansına çatırdısa, onların qarşısında dayanır, bir qədər söhbət edir, qaranlıq məsələləri aydınlaşdırır və təsir göstərirdi. Bir yerdə ixtilaf yarandığını və bir qrupun şübhəyə düşdüyünü görən kimi cəld özünü oraya çatdırır, onlarla söhbət edir, məsələni başa salır və işləri yoluna qoyurdu.

# Beşinci fəsil

## Yumşaq müharibə

### Yumşaq müharibənin hərbi müharibə qədər təhlükəli olması

Biz bu planın hər tərəfini aydın şəkildə görməli və göstərməliyik. Bizim vəzifəmiz budur. Bu gün bizə qarşı hərbi müharibə çox da ehtimal olunmur. Demirik ki, əsla mümkün deyil, amma çox ehtimal olunmur. İndiki müharibənin təhlükəsi isə hərbi müharibədən çox olmasa da, az deyil; əgər daha çox ehtiyat tələb etmirsə, az ehtiyat da tələb etmir. Hərbi müharibədə düşmən bizim sərhədlərimizdəki səngərlərə hücum edir, sərhədlərimizi yarıb keçməyə çalışır. Bu gün yumşaq müharibə adlanan psixoloji müharibədə isə düşmən mənəvi səngərləri dağıtmağa çalışır; imanlara, etiqadlara, iradələrə, bir quruluşun və bir ölkənin əsas təməllərinə hücum edir. Düşmən bunları dağıtmağa və öz təbliğatında müsbət cəhətləri mənfi cəhətlərə çevirməyə çalışır; bir quruluşun fürsətlərini təhdidə çevirmək istəyir.

## Yumşaq müharibənin mənşəyi: quruluşla ağır mübarizədə düşmənin məğlubiyyəti və İslam Respublikasının güclənməsi

Bu güc (İran) bütün hegemon istəklərlə və yer üzündə fəsad törədən əzəmətli iqtisadi kompaniya və şəbəkələrlə müxalifdir; istismarçı düzənlə müxalifdir, istismarçılıqla müxalifdir, zülmlə müxalifdir. Bu, hegemon qüvvələr üçün çox əhəmiyyətli məsələdir. Hegemon qüvvələr yalnız Amerika Birləşmiş Ştatları, yaxud Amerikanın və ya filan Avropa ölkəsinin filan prezidenti və hökuməti deyil. Hegemon qüvvələr bunlara şamil olan daha möhtəşəm bir şəbəkədir; sionizm şəbəkəsidir, əsas beynəlxalq biznesmenlər şəbəkəsidir, dünyanın nəhəng valyuta mərkəzləridir. Dünya siyasətini planlaşdıran bunlardır; hökumətləri bunlar gətirirlər, bunlar aparırlar. Daxilində Amerika Birləşmiş Ştatları hökumətinin, Avropa hökumətlərinin və öz regionumuzun sərvətli neftyeyənlərinin çoxunun olduğu bu birlik inkişaf etməkdə, ucalmaqda və boy atmaqda olan belə bir güclə sərt müxalifdirlər. Buna görə

onunla mübarizədə bacardıqları hər bir işi görürlər.

İnqilabdan sonra İslam quruluşuna qarşı mübarizənin otuzillik bir keçmişi var, yeni bir şey deyil. Mübarizənin formaları müxtəlif olsa da, özü həmişə olmuşdur; güclü, yaxud zəif, bizim daxili vəziyyətimizlə münasib olmuşdur. Harada və nə vaxt güclü təsir göstərə biləcəklərini duymuşlarsa, bacardıqları zərbəni vurmuşlar. İnqilab bu otuz il ərzində bu zərbələrin qarşısında möhkəm dayanmış, nəinki zəifləməmiş, hətta Allahın lütfü ilə günbəgün güclənmişdir də. Lakin burada bir məqam var. O da budur ki, biz İslam Respublikası quruluşunda nə zaman güclənmiş, irəliləmiş və işlərimizi mürəkkəbləşdirmişiksə, düşmənin təxribatı da mürəkkəbləşmişdir. Buna diqqət yetirmək lazımdır.

## Yumşaq müharibənin mənası

Həmişə bütün ehtimallara hazır olmaq lazımdır, lakin bu, İslam quruluşuna qarşı mübarizədə hegemonluq üçün prioritet deyil. Prioritet bu gün yumşaq müharibə deyilən məsələdir; yəni mədəni üsullarla, yalanla və

şayiə yaymaqla müharibə etmək; on il, on beş il, otuz il öncə mövcud olmayan və bu gün geniş yayılmış mütərəqqi üsullarla müharibə etmək. Yumşaq müharibə xalqın qəlbində və beynində şübhə yaratmaqdır.

Düşmən oyaqdır. Dünyanın mühüm siyasi təhlükəsizlik mərkəzlərindən bizə çatan xəbərlər göstərir ki, böyük, əzəmətli və nəhəng qurumlar çoxlu büdcələrlə daim İslam Respublikası quruluşu üzərində işləyirlər. Onların məqsədləri deyilmişdir, bizə və sizə bəllidir. Onlar işləyir, hər gün bir layihə qəbul edir və İslam Respublikası qarşısında yeni bir problem yaradırlar. Onlar bu işləri görürlər; bu işdə təcrübələri var, çox çalışırlar, ixtiyarlarında çoxlu imkanlar da var.

## Yumşaq müharibədə düşmənin məqsədi

Hərbi müharibədə düşmən bizim sərhədlərimizdəki səngərlərə hücum edir, sərhədlərimizi yarıb keçməyə çalışır. Bu gün yumşaq müharibə adlanan psixoloji müharibədə isə düşmən mənəvi səngərləri dağıtmağa çalışır; imanlara, etiqadlara, iradələrə, bir quruluşun və

bir ölkənin əsas təməllərinə hücum edir. Düşmən bunları dağıtmağa və öz təbliğatında müsbət cəhətləri mənfi cəhətlərə çevirməyə çalışır; bir quruluşun fürsətlərini təhdidə çevirmək istəyir.

## Yumşaq müharibədə əsas xətlər

### Ölkənin siyasi sabitliyini pozmaq

Bu gün yumşaq müharibədə düşmənin əsas işi ölkənin siyasi mühitini bulaşdırmaqdır; bunu nəzərdən qaçırmayın. Bu gün düşmənin ən mühüm işi budur. Siyasi işlərlə məşğul olan və məlumatlı insanlar bilirlər ki, bu gün böyük güclərin qüdrəti atom bombalarından və banklarında yığılmış sərvətlərdən daha çox onların təbliğat imkanlarındadır, hər yerə çatan gur səslərindədir. Təbliğat üsullarını da yaxşı bilirlər; bu sahədə doğrudan da inkişaf etmişlər. Bu gün qərblilər - istər avropalılar, istər amerikalılar təbliğat işində modern və çox mütərəqqi üsullar bilirlər. Biz bu sahədə geridəyik. Onların ən əsas işlərindən biri təbliğatı bacarmalarıdır. Bu təbliğat üsulları ilə, ajiotajla, həqiqətin ziddinə olan söz yığını göndərməklə cəmiyyətlərin vəziyyətini

dəyişdirməyə və təsir göstərməyə çalışırlar. Bu məsələyə diqqət yetirmək və bundan ehtiyatlı olmaq lazımdır. Bu gün bu baxımdan bizim gənclərimizin üzərinə ağır vəzifə düşür. Sizin yalnız özünüzün həqiqəti təyin etməniz kifayət etmir, öz ətraf mühitinizi də məlumatlandırmalı və onlar üçün də məsələləri aydınlaşdırmalısınız.

Bir mühüm məsələ budur ki, nahaq insanın qarşısında həmişə çılpaq görünmür ki, nahaq olduğu anlaşılsın. Nahaq çox zaman haqq libası ilə, yaxud haqqın bir parçası ilə meydana çıxır. Əmirəl-möminin (ə) buyurmuşdur ki, əgər haqq və nahaq açıq şəkildə və pərdəsiz meydana çıxsa, ixtilaf olmaz; hamı haqqı sevər və nahağa nifrət bəsləyər. Lakin haqqın bir hissəsini nahağın bir hissəsi ilə qarışdırırlar, tamamən nahaq olmasına qoymurlar. Odur ki, insanlar səhvə düşürlər. Bundan çox ehtiyatlı olmaq lazımdır. Bu gün beynəlxalq təbliğat şəbəkələri sizin ölkənizdə, cəmiyyətinizdə, sizin İslam quruluşunuzda həqiqətləri tərsinə göstərməkdə çox israrlıdır. Təbliğat imkanları da çoxdur, daim çalışırlar. Əlbəttə, bəzi şəxslər də bilərəkdən,

bəziləri də bilmədən daxildə həmin sözləri təkrarlayır və işıqlandırırlar.

## Cəmiyyətdə ixtilaf və təfriqə yaratmaq

Yumşaq müharibənin yollarından biri bir cəmiyyətdə xalqı bir-birinə qarşı bədbin etmək, ixtilaf yaratmaq, bir bəhanə tapıb onunla xalqın arasına təfriqə salmaqdır. Gördünüz ki, builki seçkilərdən sonra bir bəhanə tapıb xalq arasında ixtilaf yaratdılar. Xoşbəxtlikdən, bizim xalqımız agahdır. Belə bir iş digər ölkələrdə vəziyyəti tamamilə dəyişdirdi; digər yerlərdə xalqda bir-birinə qarşı şübhə yaratdı. Seçkiləri bəhanə edib şübhə yaratmağa, qəlblərdə bir-birinə qarşı nifrət oyatmağa, insanları bir-birinin qarşısında qoymağa cəhd etdilər. Sonra da muzdur, qərəzli və düşmən qüvvələri cinayət əməllərinə vadar etdilər ki, məmurlar kimin nə etdiyini bilməsinlər. Bu mühüm layihələrdəndir. Belə işlər planlaşdırırlar.

İnkişafa tam zidd olan amillərdən biri ixtilaf və təfriqədir; xalq arasında təfriqə, məmurlar arasında təfriqə, quruluşun müxtəlif orqanları arasında təfriqə, quruluşla xalq arasında təfriqə.

İniqlabın bizə verdiyi bu birlik və həmrəylik müqəddəs bir namus kimi qorunmalıdır. Düşmənin yumşaq müharibədə həmişə gördüyü və bu gün də görməkdə olduğu ən mühüm işlərdən biri bu birliyi zəiflədib paçalanma yaratmaqdır. Bunun üçün çalışır, şiə və sünni məzhəbləri arasında ixtilaflar yaradırlar, fars, ərəb, türk, kürd və digərləri arasında irqi ixtilaflar yaradırlar, bölgə ixtilafları yaradırlar, təşkilat və partiya ixtilafları yaradırlar.

Bunların hamısına qarşı tam diqqətlə, yəni bizim agahlıq adlandırdığımız amillə tədbir görmək lazımdır. Gərək harada olduğumuzu bilək, bu gün durduğumuz səngəri tanıyaq. Həssas bir səngərdə durub səngərinin nə qədər həssas, işinin və mövqeyinin nə qədər əhəmiyyətli olduğunu bilən bir əsgərlə həmin səngərdə duran, lakin onun nə qədər mühüm olduğunu bilməyən, yatan, diqqətsizlik edən, səngəri tərk edən, səngər daxilində yoldaşı ilə dalaşan şəxs arasında fərq vardır. Biz İran xalqının mövqeyinin nə qədər həssas olduğunu bilməliyik.

## Ümid əlamətlərini gözdən salmaq və cəmiyyətə ümidsizlik aşılamaq

Bizim düşmənlərimiz, inqilabın və İslam Respublikası quruluşunun düşmənləri bir neçə xətti əsas tutmuşlar. Bu onların təbliğatlarında və işlərində açıq-aydın görünür, gizli və məxfi məsələ deyil. Biz bunları daim diqqətdə saxlamalıyıq:

Biri ümid əlamətlərini qırıb sıradan çıxarmaqdır. Onların biri bu seçkilər idi. Xalqın 85 faizinin iştirak etməsi ümidverici bir haldır, mühüm bir işdir. Qeyd etdiyimiz kimi, bir inqilabdan otuz il sonra ölkənin əhalisi gəlib bu inqilabdan yaranmış quruluşa belə böyük səs verir. Bunun bu quruluşa etimaddan və onu sevməkdən başqa mənası yoxdur. Bu baş verdi. Yaxud prezidenti belə yüksək səslə seçmələri bənzərsiz bir şey idi. Bu iş baş verdi və ölkədə görüldü. Bu, əhəmiyyəti çox böyük olan müsbət cəhətdir. Onlar bu müsbət cəhəti mənfi cəhətə, ümid amilini şübhə və məyusluq amilinə çevirməyə çalışdılar. Bu iş qərəzlidir. Ölkədə ümid amilləri çoxdur. Bu gün ölkənin infrastrukturu çox güclüdür. Bu illərdə mühüm işlər görülmüşdür və bu gün ölkə inkişafa doğru

sürətli bir hərəkətə hazırdır. Bu gün elmi inkişaflar çox nəzərə çarpır; digər ölkələrin siyasi qərəzi olmayan alimləri də bunu etiraf edirlər. Bir nümunəsini bu gecə televiziyada gördünüz. Kök hüceyrələr məsələsinə toxunaraq etiraf etdilər ki, İranın bu qədər inkişaf etdiyinə inanmazdıq. Deyir mən ötən il də bu elmi konfransda iştirak etdim, bu il də. Bu il ötən illə çox fərqlənmiş, böyük inkişaf yaranmışdır. Bu bir nümunəsidir. Onlarla belə nümunə var. Bunlar elmi inkişaflardır, ümid amilləridir. Bizim arxamızda və ixtiyarımızda otuzillik bir təcrübə dayanır. Enerjili və təhsilli gənc nəsil səhnədədir və onların hamısı ümid amilləri və müsbət cəhətlərdir. Həm təhsili, həm özünə inamı olan, həm də öz ölkəsini inkişaf etdirə biləcəyini duyan gənc nəslimiz var. Bizim bir mənzərə sənədimiz var və 2025-ci ilə qədər ölkənin inkiaşfları və maddi inkişaflar baxımından xəttimizin harada olduğunu müəyyən etmişdir. Bu çox mühüm məsələdir. Müəyyən edilmişdir ki, hansı mərhələyə çatmalı və hansı yolla hərəkət etməliyik. Bunlar ümid amilləridir, müsbət cəhətlərdir. Bunları məyusluq amillərinə çevirmək istəyirlər.

Mənzərə sənədindən söhbət düşəndə deyirlər ki, bu sənədə baxan yoxdur; elmi inkişaflardan söhbət düşəndə deyirlər ki, bunlar çox əhəmiyyətli deyil; seçkilər barədə danışanda bu şübhə və iradları qarşıya qoyurlar; gənclər haqda söhbət gedəndə bir tərəfdə bir neçə gəncin qanun pozuntusuna işarə vururlar. Yəni bütün bu müsbət cəhətləri, hamısı ümidverici olan bütün bu dəyərli nailiyyətləri əhəmiyyətsiz göstərməyə çalışırlar. Digər tərəfdən, bunun qarşısında təbii ki, mövcud olan kiçik mənfi cəhətləri böyüdür, yaxud kiçik olmasa da, hər halda onları böyüdürlər, olduğundan bir neçə dəfə böyük göstərir, ümidsizlik yaradır, quruluşa qarşı bədbin təsəvvürləri gücləndirirlər. Özünüz görürsünüz ki, ümidsizliyi zorla cəmiyyyətə sırımaq istəyirlər. Cəmiyyət ümidsiz olanda hərəkətdən dayanır, yaradıcı və aparıcı adamlar, gənc və aktiv qüvvələr təcrid olunurlar, kənara çəkilirlər, əlləri işə getmir, həmkarlıqlar azalır, cəmiyyət dinamikliyini itirir. Düşmənin xətlərindən biri budur. Daim vəziyyətin çıxılmaz olduğunu təlqin edirlər. Bir zaman deyirdik ki, radiolarda təbliğat aparırlar, bu gün isə yalnız radio deyil.

Bir zaman deyirdik ki, onlarla radio, bu gün isə söhbət minlərdən gedir; radio var, televiziya var, internet səhifələri var. Müəyyən mərkəzlərdən idarə olunan bütün bu təbliğatlar daim vəziyyətin çıxılmaz, böhranlı və ümidsiz olduğunu təlqin edirlər; nə qədər alınsa, nə qədər dinləyici cəlb etsələr və onlar üçün inanılası görünsə, bu sahədə işləyirlər. Bu, düşmənin xətlərindən biridir.

## Xalqın diqqətini düşmənlərdən yayındırmaq

Bizim fikrimizcə, düşmənin sərmayə qoyduğu başqa bir xətt xalqın zehnini düşmənlərdən yayındırmaqdır. Biz cəmiyyətdə yaranan çoxlu problemlərdə və müxtəlif çatışmazlıqlarda daxildəki şəxsi və ictimai təqsirləri inkar etmirik; bunda heç bir şübhə yoxdur və kimsə bunu inkar etmir. "Sənə yetişən hər bir yaxşılıq Allahdan, sənə üz verən hər bir pislik isə özündəndir". Bu bəllidir. Düşmən bizə zərbə vurdusa və bu zərbə təsirli oldusa, bu da özümüzdəndir; bunda şübhə yoxdur. Ühüd döyüşündə düşmən hücum edib zərbə vuranda əslində müsəlmanlar özləri zərbə vurdular. Bu

məlumdur, amma məsələ burasındadır ki, insan zərbə vurulmasını istəmirsə, düşmənin əlini görməlidir. Vurulmamaq üçün diqqətli olmağın şərtlərindən biri bizə zərbə vurmaq istəyən düşməni görməkdir. Bunu unutmaq olmaz. Xüsusən görkəmli və aparıcı şəxslərə düşmənin təsirini unutdurmaq düşmənin təlqin və təbliğ etdiyi xətlərdən biridir. Şübhəsiz ki, bu iş üçün müxtəlif yollar vardır. Kimsə düşməndən danışan kimi deyirlər ki, siz hər şeyi düşmənin boynuna atırsınız. Bəli, düşmən var, nə üçün onu görmürük? Nə üçün burada seçkilərdən sonra düşmənin bizim ixtilafımızdan, müxtəlif hadisə və müsibətlərdən yaranan böyük sevincini görmürük? Səbəbkar şəxsləri həvəsləndirirlər. Orada böyük bir ölkənin başçısı adamların adlarını çəkir. Bu, düşmənlik yaratmaq deyil, bəs nədir?! Quruluşun əleyhdarlarının adlarını çəkib tərifləyir və deyirlər ki, biz onun şücaətinə heyran olduq. Nə üçün? Çünki onların xoşuna gələn bir söz demişdir. Bunları görmək, bunlara diqqət yetirmək və düşmənin düşmənliyini yadda saxlamaq lazımdır. Əlbəttə, onun düşmənliyi gözləntidən kənar deyil, bizim diqqətsizliyimiz gözləntidən kənardır.

# Düşmənin yumşaq hücumuna qarşı mübarizənin yolları

## Agahlıq yaratmaq və ağıllı davranmaq

Düşmən belə bir "puzzle" düzəldib ki, içindən bir söz çıxarsın. Bu hərflərin bir neçəsini də biz qoyaq?! Bundan ehtiyatlı olmaq lazımdır. Söhbət bundan gedir. Biz düşmənin "puzzle" fiqurunu tamamlamamalıyıq. Düşmənin gördüyü və görmək istədiyi işi bilməli, açıq məqsədlərini və rolunu görməliyik.

...Bu gün düşmən və müxaliflər əleyhinə ən təsirli beynəlxalq silah təbliğat silahıdır, media silahıdır. Bu gün bu ən güclü silahdır, atom bombasından da pis və təhlükəlidir. Seçkilərdən sonrakı iğtişaşlarda düşmənin bu silahını görmədiniz? Düşmən bu silahla bizim hadisələrimizi anbaan izləyir və fitnəkarlara tövsiyələr verirdi: "Həqiqətən şeytanlar sizinlə mücadilə etmək üçün öz dostlarına ilham edirlər". Daim öz dostlarına ilham edirdilər. Bu düşmənin roludur. Düşmənin rolunu bundan da aydın və aşkar fərz etmək olarmı?!

Agah olmaq lazımdır. Cəmiyyətin aparıcı şəxslərindən, siyasi cərəyan və qruplardan gözlənilən budur ki, bu hadisələrlə, düşmənin bu xətləri ilə agah şəkildə rəftar etsinlər. Əgər agahlıq və mübarizə əzmi olsa, bizim rəftarlarımızın çoxu dəyişə bilər. O zaman vəziyyət daha yaxşı olar. Bəzi işlər agahlığın olmamasına görədir.

## İnqilabın və ölkənin müstəqilliyinin müxalifləri qarşısında xalqın birliyi

Mənim təkidim budur ki, hamı, bütün İran xalqı, müxtəlif siyasi cinahlar bu inqilabın və ölkənin müstəqilliyinə qarşı çıxan, ölkəni ikiəlli Amerika və hegemonluğa təqdim etmək istəyən azsaylı şəxslər qarşısında bir olsunlar. Bütün xalqların daxilində düşmənin belə ünsürləri var. Bizim xalqımızın arasında da belə insanlardan az da olsa, tapılır. Xalqın özünü, kütlələri, aparıcı və adi insanlardan ibarət olan əzəmətli toplumu həmin azsaylı satqın ünsürlərdən ayırmaq lazımdır; səhv salınmamalıdır. Bəzi fikirlərdə, bəzi sözlərdə vəziyyət elə qarışdırılır ki, insanlar çaş-baş qalırlar, xalq bir-birinə, görkəmli

şəxslərinə və məmurlarına bədbin olur. Bu düzgün deyil.

# Tələbələr - yumşaq müharibədə cəbhənin gənc zabitləri

## Zabitliyin mənası

Biz düşmən tərəfindən yumşaq müharibəyə məruz qalmışıq. Əlbəttə, gənclərin özü də bunu təkrar-təkrar deyirdilər. Məndən öncə onlar bunu dəfələrlə dedilər və hamısı bilirdilər. Mənim əlavə etdiyim bu idi ki, dedim: "Bu yumşaq müharibədə siz tələbə gənclər bu cəbhənin gənc zabitlərisiniz". Demədim ki, əsgərləri; çünki əsgər gözləyir ki, ona “irəli” desinlər, o da irəliyə getsin, “geri çəkil” desinlər, o da geri çəkilsin. Yəni əsgər heç zaman özü qərar vermir, iradə göstərmir, komandirin dediyini icra edir. Həm də demədik ki, böyük qərargahların əməliyyatçı zabitlərisiniz. Çünki onlar irimiqyaslı planlar hazırlayırlar. Gənc zabit isə səhnədədir; həm əmri icra edir, həm səhnəni yaxşı görür, öz cismi və canı ilə səhnəni sınayır. Odur ki, bunlar gənc zabitlərdir. Tələbənin yeri budur. Həqiqətən gənc zabitlərin düşüncəsi də

var, əməli də var, səhnədədirlər, vəziyyəti də görür və çərçivə daxilində işləyirlər.

## Yumşaq müharibə cəbhəsində zabitliyin şərtləri

Nə iş görməli olduğunuzu, necə etməli olduğunuzu, necə açıqlamalı olduğunuzu mən yazmalı və deməli deyiləm. Sizin özünüz iclaslarınızda, düşüncə mərkəzlərinizdə və fikir otaqlarınızda oturub bunların yollarını tapmalısınız. Lakin məqsəd bəllidir. Məqsəd şiddətə, hiyləyə, pula, əzəmətli və mütərəqqi elm və media imkanlarına arxalanan kompleks bir hücum qarşısında İslam quruluşunu və İslam Respublikasını mudafiə etməkdir. Bu təhlükəli şeytani cərəyanla vuruşmaq lazımdır.

...Burada sizə deyirəm ki, ehtiyatlı olun, universitet bu kiçik və dəyərsiz siyasi hadisələrin təsiri altına düşməsin, onun elmi işi zəifləməsin, bizim laboratoriyalarımıza, siniflərimizə, tədqiqat mərkəzlərimizə ziyan toxunmasın; diqqətinizi toplayın. Yəni sizin qarşınızdakı mühüm məsələlərdən biri universitetlərin elmi hərəkətini qorumaqdır. Düşmənlər çox istəyirdilər ki, bizim universitetlərimiz ən azı bir

müddət tətil olsun, onda iğtişaşlar törədilsin və müxtəlif ziyanlara uğrasın. Bu həm siyasi baxımdan, həm də uzunmüddətli iş baxımından onlar üçün ideal bir məsələdir. Çünki sizin elminiz uzunmüddətli iş baxımından onların zərərinədir və buna görə elmdən uzaqlaşmağınızı istəyirlər.

Dedik ki, siz gənclər yumşaq müharibədə gənc zabitlərsiniz. Məndən soruşmayın ki, indiki zirar məscidini uçurmaqda biz tələbələrin rolu nədir; özünüz axtarıb tapın. Yaxud yeni nifaqla mübarizə necə olmalıdır və ya ədalətin tərifi nədir. Mən də gəlib burada fəlsəfi bir mövzu açım ki, ədalətin bir neçə şaxəsi var, filan.

## Yumşaq müharibənin komandirləri olan müəllimlərin rolu

Əgər ictimai məsələlərdə, siyasi məsələlərdə, ölkə hadisələrində, açıq gözə və yetərli agahlığa ehtiyac olan yerlərdə bizim tələbə gəncimiz gənc zabitdirsə, onun müəllimləri olan sizin rütbəniz daha yüksəkdir. Siz irimiqyaslı məsələləri görməli olan komandirsiniz; düşməni düzgün təyin edin, onun məqsədlərini öyrənin, bəzən düşmənin xəbəri olmadan onun qərargahlarına

baş çəkin, bunun əsasında irimiqyaslı planlar hazırlayın və bu planlarla hərəkət edin. Müxtəlif rütbələrdə yüksək komandirlər bu rolları ifa edirlər.

Bu rolu ifa etməyi bacaran müəllim İslam Respublikası quruluşunun indisi və gələcəyi üçün layiqli müəllimdir. Möhtərəm müəllimlərdən gözlənilən budur. Gənclərə diqqət yetirin. Məqsədim bu deyil ki, oturub siyasətçiləri onlara tanıtdırasınız. Xeyr, mən əsla bununla müvafiq deyiləm. Kimlərinsə adını çəkmək problemin həllinə kömək etmir. Bunlarda təhlil qabiliyyəti yaradın, bunlara iş bacarığı verin və işə həvəs aşılayın. Necə? Ümid verməklə, ümid bağışlamaqla. Sinfi, dərs otağını və universiteti gələcəyə ümid məkanı edin. Bir ölkədə bir nəsil üçün ən pis bəla ümidsizlikdir, məyusluqdur; yəni desinlər ki, cənab, faydasızdır. Bu "faydasızdır" ruhiyyəsi və gələcəyə ümidsizlik bütün fəaliyyətlər üçün - istər ictimai və siyasi fəaliyyətlər üçün, istər hətta elm və tədqiqat fəaliyyətləri üçün həlakedici zəhərdir. Təcrübi elmlərdə və müxtəlif fənlərdə böyük kəşfləri etmiş şəxslər nəticəyə ümidsiz olsaydılar, şübhəsiz, buna nail

olmazdılar. Ümid insanı irəliyə doğru aparan möhtəşəm qüvvədir. Bizim gəncimizi ölkəsinə, inqilabına, gələcəyinə, hökumətinə, universitetinə, elmi və peşə gələcəyinə ümidsiz etmək istəyirlər. Bu çox zərərlidir. Bu, bizim düşmənlərimizin və quruluşun müxaliflərinin proqramlarında var. Mənim fikrimcə, əsaslı işlərdən biri budur: tələbələri həvəskar, ümidli və inkişafa inanan yetişdirin.

Müxtəlif ictimai, siyasi və elmi sahələrdə görülməsi lazım olan işlərdən biri də fikir bildirməsi üçün tələbəyə imkan yaratmaqdır. Fikir bildirməkdən qorxmaq lazım deyil. Universitetlərdə bizim dediyimiz bu azad düşüncə kürsüləri həyata keçməli və təşkil olunmalıdır. Əgər siyasi, ictimai, hətta düşüncə və din kimi müxtəlif sahələrdə mühüm ixtisaslı mövzular sağlam mühitlərdə və uyğun mövzuda güclü şəxslər tərəfindən incələnsə, daha ümumi və ictimai yerlərdə müzakirə olunmaz, bəlli ziyanlar da baş verməz. Adi camaatla üz-üzə gələndə hamı özünü qoruya bilmir. Adi camaatla üzləşmək insanları yayınmalara, tənəzzülə və çoxlu səhvlərə düçar edir. Təəssüf ki, biz bunları görmüşük. Siz çoxlarını

görürsünüz ki, adi camaat qaşrısında bəlkə də ürəklərində çox da inanmadıqları bir sözü deyirlər; bəzilərinin təbirincə desək, məclisə düşürlər. Bu çox pis haldır. Əgər xüsusi mühitlərdə, azad düşüncə mühitlərində bu ixtisaslı, elmi və problemli məsələlər bəhs olunsa, şübhəsiz, az hallarda ziyanlı olacaq.

## Son nöqtə: inkişaf etmək və kompleks iqtidara yiyələnmək

İnkişaf dedikdə məqsəd kompleks inkişafdır. Bu xalq ölkənin bütün sahələrində inkişafa layiqdir: milli sərvətin istehsalında, elm və texnologiyada, milli iqtidarda və beynəlxalq başucalığında, əxlaq və mənəviyyatda, ölkənin ictimai və əxlaqi təhlükəsizliyində, xidmət səviyyəsinin yüksəldilməsində. Xidmət səviyyəsinin yüksəldilməsinin mənası budur ki, biz malik olduqlarımızdan ən yaxşı şəkildə istifadə edə bilək; neftdən, qazdan, zavoddan, yoldan və ixtiyarımızda olan digər amillərdən maksimum və ən yaxşı şəkildə bəhrələnək. Həmçinin qanunçuluqda və ictimai nizam-intizamda inkişaf edək. Əgər bir xalq qanunsuzluğa düçar olsa, xalqın zehninə və

əməlinə qanunu pozmaq ruhu hakim olsa, o xalqa və o ölkəyə heç bir ağıllı və düzgün inkişaf nəsib olmaz. Biri də vəhdətdə və milli birlikdə inkişafdır. Düşmənlər inqilabın əvvəlindən bunu pozmağa çalışmışlar, lakin xoşbəxtlikdən bizim xalqımız sui-istifadəyə yararlı olan bütün sahələrdə öz birliyini qorumuşdur. Biz bunu bacardıqca artırmalı və yüksəltməliyik. İnkişafın başqa birisi ümumi rifahda inkişafdır. Bütün təbəqələr rifah içərisində yaşamalıdırlar. Bir inkişaf siyasi səviyyədə inkişafdır. Bizim xalqımız kimi əzəmətli bir cəmiyyət üçün siyasi dərk, siyasi yetkinlik və siyasi təhlil qabiliyyəti düşmənlərin bədxahlığı qarşısında polad bir hasar kimidir. Odur ki, biz öz siyasi yetkinliyimizi yüksəltməliyik. Bizim xalqımız siyasi yetkinlik baxımından bu gün də çoxlu xalqlardan öndədir, amma yenə də inkişaf etməliyik. Məsuliyyət qəbul etmək, milli əzmkarlıq, iradə və digər sahələrdə də inkişaf etmək lazımdır.

Həm tələbələrin, həm əziz universitet mənsublarının, həm bütün xalqın, xüsusən də alim və ziyalıların diqqət yetirməli olduğu əsas məsələ budur ki, İslam Respublikası quruluşu bu

bacarığa və bu iqtidara malikdir; necə ki, bu günə qədər bu otuz il boyu dayana bilmişdir. Onların bütün səyləri İslam Respublikasını məhv etməyə yönəlmişdi, lakin nəinki məhv olmadı, hətta günbəgün müxtəlif sahələrdə gücləndi də. Hegemonluğun siyasətləri, Amerikanın siyasətləri, aydın dəlillərə əsasən ilk düşmənlik hədəfi İslam Respublikasından ibarət olan dünya sionist şəbəkəsinin siyasətləri İslam Respublikasını ayaqdan sala bilməz; nəinki ayaqdan sala bilməz, heç zəiflədə də bilməz. Biz sürətlə öz hərəkətimizi davam etdirə bilərik. Sözsüz ki, düşmənin hiyləsini gözləyirik. Bu hiylələr bir dövrə qədər davam edəcək. O dövr ölkənin hərtərəfli iqtidarından ibarətdir və bu siz tələbələrin, siz gənc nəslin işidir. Siz ölkəni elmi və iqtisadi iqtidara çatdırdıqda və ölkə üçün elmi izzəti təmin etdikdə, o zaman sözsüz ki, hiylələr azalacaq, məyus olacaqlar. O nöqtəyə çatmayınca hiylələri gözləmək və onlara qarşı mübarizəyə hazır olmaq lazımdır. İnşallah zaman ötdükcə siz daha güclü, düşməniniz isə daha zəif olacaq. Son qələbənin xalqa nəsib olacağı gün uzaqda deyil.